

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS
№ 082 (6765)
12 may 2023-cü il.
Qiymәti 60 qәpik

## Birinci vitse-prezident Mehriban Əliyeva "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından video paylaşıb



2

# Hər gün dirçələn, gözəlləşən Şuşa!



3

# Paşinyanın dərs almalı olduğu ÇƏTİN VƏZİYYƏT



7

## AĞDAM: düşmən gözünə daman ağ



8

## Humanizm siyasətinə sədaqət nümunəsi



6

## "Genişmiqyaslı fəlakət baş verməmiş Metsamor AES bağlanmalıdır"



12

## Xarici turistlər üçün qiymət niyə bahadır?



16

## Ölkəmizdə kimlər harada ov edə bilər?



13

# “Total Energies” şirkəti Azərbaycanla əməkdaşlığa sadiqdir

*Prezident İlham Əliyev “Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də “Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.

Görüşdə SOCAR ilə “Total Energies” arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. “Abşeron” qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz “Total Energies” şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq, ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi. Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

# Dünya mediasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı məqalələr yayımlanıb










Dünyanın siyasi tarixində özünəməxsus yeri olan, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi nüfuzlu xarici KİV-lər tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, KİV-lərdə yayımlanan məqalələrdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən söz açılıb, onun dünyanın böyük siyasət və dövlət xadimləri ilə bir sırada dayandığı qeyd edilib.

Türkiyənin Anadolu agentliyində yayımlanan “Azərbaycanın Ulu Öndəri Heydər Əliyev anadan olmasının 100-cü ildönümündə anılır” sərlövhəli məqalədə “Şəxsiyyətin ölkənin və xalqın tarixində oynadığı rolu Heydər Əliyevin həyatının timsalında dərk etmək mümkündür” fikri xüsusi vurğulanıb. Məqalədə Ulu Öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif məqamları, sovet dövründə Azərbaycana rəhbərlik etdiyi, daha sonra SSRİ-də yüksək vəzifədə çalışdığı dövr ətraflı işıqlandırılıb.

Həmçinin əbədiyaşar liderin müstəqil Azərbaycanın Prezidenti kimi, respublikanın daxili və xarici siyasətdə qazandığı uğurlarda misilsiz xidmətləri diqqətə çatdırılıb, Ulu Öndərin Türkiyənin dövlət başçıları ilə görüşlərindən söz açılıb.

Anadolu agentliyinin türkdilli versiyasında yer alan xəbərdə isə Türkiyənin Poçt və Teleqraf Təşkilatının Ümummilli Liderin 100 illik yubileyi münasibətilə xatirə əsginası və xüsusi zərf çap etdirdiyi vurğulanıb. Bildirilib ki, bu əsginas Poçt və Teleqraf Təşkilatının muzeyində nümayiş etdiriləcək.

Türkiyənin “TRT Haber” kanalının saytında yayımlanan məqalədə isə 80 illik ömrünü xalqına xidmətə həsr etmiş Heydər Əliyevin Azərbaycanın ən çətin anlarında xalqının yanında olduğu, doğma Vətənini hər cür bəlalardan qoruyaraq dinamik inkişaf yoluna çıxardığı bildirilib. Məqalədə Azərbaycan xalqının böyük oğlunun xatirəsini daim ən dərin ehtiramla yad etdiyi vurğulanıb, 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan olunduğu, ilin əvvəlindən başlayan silsilə tədbirlərin il ərzində davam etdiriləcəyi əksini tapıb.

“HaberGlobal” televiziyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə İstanbul, Ankara və digər şəhərlərdə keçirilən silsilə tədbirlərdən söz açılıb, Türk dünyasının böyük oğlu, Ümummilli Liderin xatirəsinin qardaş ölkədə də ən yüksək ehtiramla yad edildiyi vurğulanıb.

Türkiyənin “Milliyet”, “Hürriyet” və digər xəbər saytlarında yer alan xəbərlərdə də Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərindən söz açılıb.

İtaliyanın aparıcı kütləvi informasiya vasitələrində Azərbaycan xalqının dahi Lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar məqalələr dərc olunub. “Il Sole 24 Ore” televiziyasının, “Libero”, “Notizie Tiscali”, “Askanews”, “Insideover”, “Agenzia Nova” informasiya agentliklərinin yaydığı materiallarda Ümummilli Liderin xilaskarlıq və quruculuq missiyasından, Azərbaycan xalqının ictimai-siyasi həyatında və dövlətçilik tarixindəki misilsiz rolundan bəhs edilib.

Ulu Öndərin Azərbaycanın neft-qaz siyasətinin formalaşmasındakı xidmətləri, eləcə də dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində reallaşan və ölkəmizin dünya enerji təchizatında strateji oyunçu kimi rolunu artıran “Əsrin müqaviləsi”nin əhəmiyyəti vurğulanıb. Yazılarda Heydər Əliyevin 1997-ci ildə müstəqil Azərbaycanın ilk Prezidenti kimi İtaliyaya səfərinin əhəmiyyəti, Ümummilli Liderin Azərbaycan-İtaliya münasibətlərinin inkişafındakı xüsusi rolu qeyd olunub. Bildirilib ki, hazırda Azərbaycan-İtaliya əlaqələri çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib, TAP boru kəməri sayəsində ölkəmiz Avropanın, eləcə də İtaliyanın etibarlı enerji təminatçısıdır.

Məqalələrdə ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanovun fikirlərinə yer verilib. Diplomat Ulu Öndərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təminatındakı rolunu, çoxvektorlu xarici və enerji siyasətinin əhəmiyyətini qeyd edib, xalqımızın Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirdiyini bildirib.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi Bolqarıstan mətbuatında da geniş işıqlandırılıb. Bu ölkənin müxtəlif xəbər saytlarında, o cümlədən “Cross.bg”, “novini247” yayımlanan məqalələrdə Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi, zəngin idarəçilik təcrübəsi və siyasi müdrikliyi ilə tam bir dövlətçilik dahisi olduğu bildirilir. Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi ilk illərdə Ermənistanın hərbi təcavüzünə məruz qaldığı, suveren ərazilərinin 20 faizinin işğal edildiyi, etnik təmizləmə nəticəsində kütləvi şəkildə qaçqın və məcburi köçkün problemi ilə üzləşdiyi bir zamanda məhz Heydər Əliyevin səyləri ilə məhv olmaq təhlükəsindən qurtulduğu qeyd edilib. Ümummilli Liderin başlatdığı hərtərəfli islahatlar sayəsində müstəqil Azərbaycanın müasir və dinamik inkişaf edən güclü dövlətə çevrildiyi bildirilib, habelə onun müəllifi olduğu enerji strategiyasının Azərbaycanı çiçəkləndirməklə yanaşı, o cümlədən beynəlxalq miqyasda ölkəmizin etibarlı tərəfdaş kimi tanınmasına əsas yaratdığı diqqətə çatdırılıb.

“Rossiyskaya qazeta” nəşri “Heydər Əliyev: tarixi şəxsiyyət” məqaləsində Ulu Öndərin fəaliyyətinin Moskva dövründən söhbət açarkən Heydər Əliyevi ən irimiqyaslı qlobal problemləri həll etməyə qadir şəxsiyyət kimi səciyyələndirib. Qəzet Heydər Əliyevi “Azərbaycanın Atatürkü” adlandıraraq yazır ki, onun rəhbərlik etdiyi dövrdə Azərbaycanda köklü dəyişikliklər baş verib: “Məhz Heydər Əliyevin timsalında şəxsiyyətin tarixdə necə rol oynadığını görmək olar. İndi Azərbaycan Şərq və Qərb sivilizasiyaları arasında etibarlı körpü rolunu oynayır, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib”.

# Birinci vitse-prezident Mehriban Əliyeva “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalından video paylaşıb



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşada keçirilən “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalından video paylaşıb.***

AZƏRTAC paylaşımı təqdim edir:
“Şuşa, 2023
“Qarabağ kompozisiyası”
İfa edir: Türk dünyasının solistləri”.

# Hər gün dirçələn, gözəlləşən Şuşa!

*PREZİDENT İLHAM ƏLİYEV: "Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır"*





***Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.***





ANALİZ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya etdiyi səfərləri və bu səfərlər çərçivəsində təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirib. Qələbəmizdən iki il keçməsinə baxmayaraq Şuşa inkişaf edir, gözəlləşir. Çünki Şuşa Azərbaycan üçün adi şəhər deyil, milli qürur, milli mənlik, mədəniyyət, incəsənət, tarix deməkdir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Bəli, məhz Şuşa Zəfərimizin tacı olduğu üçün Prezident İlham Əliyev mayın 8-də ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına təbrik müraciətini Şuşadan edib: "Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam".

"Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır", - deyə Azərbaycan Prezidenti bildirib.

Dövlətimizin başçısı müraciətində bildirib ki, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilib: "Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır".

Qarabağ probleminin həllini tapmadığını, hakimiyyətdə olanların ancaq şəxsi mənafeyini düşündüklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün, bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər".

Belə bir şəraitdə Şuşanın işğal olunduğunu vurğulayan dövlətimizin başçısı ondan sonra faciələrimizin daha da artdığını bildirib: "Şuşa işğal olunandan sonra Laçının taleyi də demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı".

***Ardı Səh. 4***

# Hər gün dirçələn, gözəlləşən Şuşa!

## PREZİDENT İLHAM ƏLİYEV: "Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır"





Əvvəli-Səh-3

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU ŞUŞANI, QARABAĞI VƏ ZƏNGƏZURU AZAD GÖRMƏK İDİ

"Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik",- deyən





Qalib Lider Prezident İlham Əliyev onu da bildirdi ki, il başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır: "Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır".

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: "Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm"

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev Şuşadan xalqa müraciətində də bildirdi: "2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq".

Bəli, bu gün Qarabağ, zəngəzur yenidən qurulur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Bu gün Şuşa 30 ildən sonra 8 mayı azad, qalib xalq kimi qarşılayır. Və bu gün Şuşa böyük quruculuq, inkişaf yolundadır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanını mayın 8-də Şuşaya səfərləri, səfər çərçivəsində görülən işlər bir daha deyilənlərin reallığıdır.

Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, biz 44 gün ərzində möhtəşəm qələbə qazandığımız kimi, Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq.

Bəli, 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı. Əziz Şuşa, 30 ildən sonra artıq qələbəmizin ikinci ilidir ki, 8 mayı azad qarşılayırsan!

Dövlət başçımızın dediyikimi: "Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ KAMALQIZI**

## Azərbaycan Ordusu Ermənistan qüvvələrinin hərbi infrastrukturunu məhv edib



Azərbaycan Ordusu Basarkeçər rayonunun Zod istiqamətində Ermənistan silahlı qüvvələri bölmələrinin hərbi infrastrukturunu məhv edib. AZƏRTAC xəbər verir ki, bu barədə "Caliber.az" videogörüntülər yayıb. Qeyd edək ki, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib. Qarşı tərəfin hədəfli atəşi nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Mahmudlu Müslüm Vidadi oğlu başından ağır yaralanıb.

Təxribat törədilən istiqamətdə Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri cavab tədbirləri görülüb. Bundan başqa, təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub.

# Türkiyədə postseçki havası

***Seçkiyə üç gün qalıb. İndiyə qədər HDP ilə yaxınlığını heç vaxt gizlətməyən Kılıçdaroğlu birdən millətçi seçicilərə müraciət etmək məcburiyyətində qalıb. İncə və Oğan üzərində sıx təzyiq var. Onlar açıq şəkildə namizədliklərini geri götürmələrini tələb edirlər. Artıq Məhərrəm İncə namizədliyini geri götürdüyünü elan edib. Bu isə o deməkdir ki, qardaş ölkədəki seçki marafonu daha kritik mərhələyə qədəm qoyub.***



CHP-nin nə qədər trolu, müğənnisi, jurnalisti var, bu iki ada təzyiqdən yana bir-biri ilə mübahisə edirlər. Amma onların seçki anketləri ilə bağlı çıxışlarına baxanda soruşmaya bilmirsən: "Əgər birinci turda çox asanlıqla qalib gəldiyini iddia edirsənsə, niyə hay-küy var?". Məncə Kılıçdaroğlu reallıqla barışmalıdır.

Kılıçdaroğlu HDP ilə münasibətlərini çox yüksək səviyyəyə çıxarıb. Həmişə olduğu kimi millətçi, kamalist, kamalist və yaxud millətçi seçiciləri özünün bir parçası kimi görür. O, "Onsuz da Ərdoğana səs verməzlər. HDP-ni sevindirsəm, bəsdir" nöqtəsindədir. Amma bu belə deyil. Çoxlu araşdırmalara baxıram. Müəyyən bir nöqtəyə qədər zərurət əlaqəsi fəaliyyət göstərir. Ancaq müəyyən bir nöqtədən sonra fasilələr olur. Xüsusilə son zamanlar həm HDP tərəfdarlarının, həm də Qəndil üzvlərinin verdiyi açıqlamalar hətta Kılıçdaroğluna səs verəcək seçiciləri belə narahat edəcək həddə çatıb.

Bəzilərinin "Öcalana ev dustaqlığı, muxtariyyət" kimi tələbləri açıq şəkildə dilə gətirdiyini xatırlayırsınız. Biri deyir ki, "Afrini geri alacağıq". Kılıçdaroğlu dünənə qədər Dəmirtaşı həbsdən azad edəcəyinə söz vermişdi. HDP ilə Millət Alyansı münasibətləri artıq müzakirə olunmayacaq qədər açıq şəkil alıb. Üstəlik, seçicilərin də HDP-nin tələbləri ilə bağlı təsəvvürləri var. Cəmiyyətin əksəriyyəti HDP-nin ən azı muxtariyyət tələb etdiyini düşünür. Mən təkcə ümumi seçkilərdən danışmıram. Hətta Kılıçdaroğluna səs verə biləcəyini deyənlər də əslində vəziyyətdən xəbərdardırlar. Bəziləri özlərini aldatmağa çalışırlar. Hətta bəziləri Ərdoğanı devirmək üçün riskə getdilər.

İkinci variant hər bir Türkiyə vətəndaşını dərindən üzməlidir. Türkiyə indi çox çətin durumdadır, bəzən insanın qardaş ölkəyə çox yazığı gəlir. Bu ölkədə müəyyən bir sosial qrup "Ərdoğan getsin, lazım gəlsə HDP-yə səs veriləcək" deyə düşünürsə, vay türkün halına. Kılıçdaroğlu hakimiyyətə gəlmək xatirinə Türkiyənin düşmənləri ilə ittifaqa girirsə vay Türkiyənin halına. Düşünmədiyimiz başınıza gəlib.

Bu gün CHP-də kamalist qalmayıb. Onun yerini kimin tutduğunu hamı bilir. Məqsəd budur. Əvvəlcə CHP devriləcək, sonra növbə Türkiyəyə gələcək. Nə baş verdiyini görməmək üçün kor və ya pis niyyətli olmalısınız. Mayın 14-də Türkiyədə kritik prezident və parlament seçkiləri keçiriləcək. Ölkədə 61 milyon, xaricdə isə daha 3 milyon seçici millət üçün "dönüş" seçimini etməlidir. Yenidən seçilmək üçün namizədliyini irəli sürən hazırkı prezident Rəcəb Tayyib Ərdoğanın 20 il verdiyi böyük Türkiyə layihəsinin taleyi təhlükə altındadır. Layihə davam etdiriləcək və ya mərhələli şəkildə dayandırılacaq? Bu sual hər kəsi düşündürür.

Ərdoğanın kampaniya baqajında tərəfdarlarının nailiyyətlər hesab etdiyi bir çox şey var. O, Türkiyə ilə Azərbaycanla faktiki "birlik dövləti" yaradıb. Türkiyə biznesi Gürcüstanda dərin kök salıb. Ərdoğan eyni zamanda Moskva və Kiyevlə dialoqu davam etdirərək özünü effektiv danışıqlar aparan biri kimi göstərib. Türkiyə Qara dəniz boğazlarının keşikçisi rolunda əvəzsizdir. Bütün Qara dəniz bölgəsində hər şeyə nəzarət edir. Ərdoğan Türkiyəni qidalandıran (ildə 4 milyon tondan çox taxıl) və qlobal ərzaq bazarının vəziyyətinə təsir göstərən Qara Dəniz Qida Təşəbbüsünün təşəbbüskarı və qarantı rolunda əzmlə çıxış edir. Ərdoğanın dövründə ölkədə milli ordunun ehtiyaclarını 80% təmin edən və ixracı artıran hərbi-sənaye kompleksi yaradılıb. Nəticədə Türkiyə Cənub-Qərbi Asiya, Yaxın Şərq, Cənubi Avropa və Qafqaz üçün nüfuzlu güc mərkəzinə çevrilib.

Türkiyə iqtisadiyyatı (çox vaxt erdonomika adlanır) Rusiya ilə sanksiya manevələri üzərindən ticarət edən beynəlxalq şirkətlər arasında logistik körpü və kross-valyuta hesablaşmaları üçün platformaya çevrilərək çox qazanır. Erdonomiksin "Axilles dabanı" on faiz inflyasiyadır.

May ayında Rusiyanın iştirakı ilə Türkiyədə inşa olunan Akkuyu atom elektrik stansiyasının birinci blokuna yanacaq yüklənəcək. Gələn il stansiya elektrik şəbəkəsini ucuz cərəyanla təmin edəcək. Xaricdən gələn təbii qazın ticarəti üçün ilin sonunda Trakyada beynəlxalq mərkəzin fəaliyyətə başlaması üçün hazırlıqlar davam edir. Ərdoğan Moskva ilə Kiyev arasında sülh danışıqlarının ağası olmaq, eləcə də döyüşlər nəticəsində dağıdılan ərazilərin kim olursa-olsun yenidən qurulmasında əsas faydalanan olmaq istərdi.

Ərdoğan artıq Türkiyənin böyük dövlət statusuna (ölkənin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə daxil olması da daxil olmaqla) birbaşa yolunu görür, lakin bunun üçün ona ən azı daha bir prezidentlik müddəti lazımdır. Və onu əldə etmək asan olmayacaq. Ərdoğana qarşı 74 yaşlı Cümhuriyyət Xalq Partiyasının (CHP) lideri Kamal Kılıçdaroğlu çıxış edir və onun dəstəyi ilə altı ideoloji cəhətdən çox heterojen partiyanın seçkiqabağı "Milli Alyans"ı yaradılıb. CHP ənənəvi olaraq "millətin atası" Mustafa Kamal Atatürkdən qalma mərkəz sol mötədil millətçi və dünyəvi mövqedən çıxış edir. İfrat sağçı millətçilər və hətta islamçılar da kamalistlərin yanında olduğu ortaya qoyur. Amma burada bir nüans var, o da partiaların adı ilə mövqeyinin üst-üstə düşməməsidir. Yeni Kılıçdaroğlunun indi rəhbərlik etdiyi CHP ilə Atatürkün yaratdığı partiyanın bir-birinə tam əks istiqamətdə olması kimi.

Kılıçdaroğlu keçmiş maliyyə naziri və Sosial Sığorta Fondunun rəhbəri kimi baqajında dövlət qulluğu var. Bəzi partiyalar Kılıçdaroğlunun yanında ona görə yer aldı ki, onların maraqları təmin ediləcək, bəziləri də müəyyən şərtlərlə CHP sədrinə qoşuldular. Bu şərtlərdən ən əsası da vitse-prezidentlərin Ankara və İstanbul bələdiyyə sədrləri Mənsur Yavaş və Əkrəm İmamoğlunun təyin edilməsi idi. Kılıçdaroğlunun təbliğatçıları onu "Türk Qandisi" adlandırır, amma "Bay Kemal" hind lider olmağa çox uzaqdır.

"Milli Alyans" özünün "Ümumi siyasət haqqında Anlaşma Memorandumu" nəşr edib, bunun mənası milləti böyük güc ambisiyalarından əl çəkməyə və diqqəti daxili problemlərə - iqtisadiyyata və maliyyəyə yönəltməyə çağırır. Bu platformanın mərkəzi hissəsi, demək olar ki, qeyri-məhdud səlahiyyətlərin dövlət başçısının əlində cəmləşməsini təmin edən Ərdoğanın avtoritar "icraçı prezidentlik" sistemini ləğv etmək vədidir. Bunun müqabilində müxalifət yenidən baş nazirin əsas şəxs olacağı "gücləndirilmiş parlament sisteminə" qayıtmağı təklif edir. Belə ki, Kılıçdaroğlu prezident olarsa, o, indiki səlahiyyətlərinin böyük hissəsini əlindən almalı olacaq. Vitse-prezident postları vəd edilən iddialı bələdiyyə sədrləri Yavaş və İmamoğlunun bununla həlimliklə razılaşacağı şübhə doğurur.

Türkiyənin xarici siyasətində "Milli Alyans"ın qələbəsi halında mümkün olan dəyişikliklər xüsusi maraq doğurur. Proqram Memorandumunda bununla bağlı yerinə yetirilməsi çətin olan bir neçə arzu var. "Milli Alyans" ölkənin Aİ-yə daxil olması prosesini bərpa etmək, xüsusən də Avropa İnsan Haqları Məhkəməsinin Ərdoğan dövründə həbsdə olan müxalifətçilərin azadlığa buraxılması ilə nəticələnəcək qərarlarına əməl etmək istəyir. Amma AB-yə gedən yol Kılıçdaroğlunun Brüsselin Aİ üzvü olan dövlətin işğal olunmuş hissəsi kimi gördüyü "Şimali Kipr Türk Respublikasının əldə edilmiş hüquqlarını müdafiə etmək" niyyəti ilə çətin ki, uyğun gəlir.

Memorandum beşinci nəsil F-35 zərbə qırıcılarının yaradılması və alınması üzrə doqquz ölkənin birgə proqramında iştiraka qayıdışdan bəhs edir. Daha əvvəl Ərdoğan Rusiyadan S-400 hava hücumundan müdafiə sistemləri aldıqdan sonra ABŞ Türkiyəni proqramdan kənarlaşdırmışdı. Ankara aldığı və quraşdırdığı hava hücumundan müdafiə sistemlərini Rusiya Federasiyasına qaytarmalı idi, lakin müxalifətçilər belə bir niyyətə susurlar.

Maraqlıdır ki, Memorandumda ABŞ-ın adı ümumiyyətlə yoxdur. Bu, "Milli Alyans"a daxil olan partiyalar arasında ABŞ-ın xarici siyasətinə mənfi-tənqidi baxışların üstünlüyünü əks etdirir. Həmçinin Ukraynadan və ya İstanbul sülh danışıqlarını davam etdirmək istəyindən bəhs edilmir, lakin niyyət münaqişə nəticəsində Türkiyə üçün "əhəmiyyətli faydalar" təmin etməkdir.

Kılıçdaroğlu Suriya prezidenti Bəşər Əsəd rejimi ilə münasibətləri normallaşdırmaq istəyir. Bundan sonra 2 milyona yaxın qaçqının Suriyaya qaytarılması nəzərdə tutulur, bununla da güman edilir ki, Türkiyənin sosial və əmək sferasında vəziyyəti xeyli yüngülləşdirəcək. Bu istiqamətdə Ankara Rusiya ilə sıx əməkdaşlıq etməli olacaq. Memorandumda Rusiya Federasiyası ilə gələcək münasibətlər "qarşılıqlı anlaşma və bərabərhüquqlu tərəfdaşlığa" əsaslanan "balanslı" kimi təsvir edilir. Kılıçdaroğlu Moskva ilə dialoqda daha az şəxsi və daha çox institusional təmaslar vəd edir.

Prezident seçkiləri demək olar ki, qaçılmaz olaraq iki turdan ibarət olacaq. İkinci turda nümayəndələri bloka daxil olmayan və hələ də ona böyük rəğbət bəsləməyən 15 milyondan çox kürd icmasının səsini cəlb etmək "Milli Alyans" üçün son dərəcə vacibdir. Bunun üçün Alyans nəticəsinə hələ də inanmadığı sözü verməklə böyük xəta etmiş olub. Fevral ayında 50 mindən çox insanın həyatına son qoyan və təxminən 1,5 milyon insanın evsiz qalmasına səbəb olan Türkiyə tarixində ən böyük silsilə zəlzələ seçkilərin nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ərdoğan günahkar inşaatçıları həbs edir, ilin sonuna qədər hər kəsi heç olmasa müvəqqəti sığınacaqla, gələn il isə tam hüquqlu mənzillə təmin edəcəyini vəd edir. Bütün bunların fonunda "mühasib və sosial işçi" Kılıçdaroğlu fövqəladə vəziyyətin öhdəsindən gəlməyi bacaran iradəli liderə oxşamır.

Ərdoğan son illərdə orduda, bürokratik və məhkəmə sistemində total təmizləmə aparıb, onları öz mövqelərini qorumaqda və böyük dövlət layihəsini davam etdirməkdə şəxsən maraqlı olan insanlarla doldurub. Qalib gəlmək və daha sonra Ərdoğanın güc maşınını sıradan çıxarmaq üçün müxalifətin təxminən 15% fərqlə seçkiləri qazanması lazımdır və belə bir nəticə mümkündür, amma hər şeyin sandıq başında həll olunacağına inandığımız üçün 14 may seçkilərini gözləməli olacağıq. Tərəflərin şansları təxminən bərabər görünə, hətta bir-birindən böyük üstünlük kimi təsvir edilə bilər. Amma mayın 15-də bəlli olacaq şox mətləblər var.Tərəflərdən birinin sorğularda nisbi üstünlüyünü nəticə kimi qiymətləndirmək olmaz. O cümlədən, bütün sorğu iştirakçıları iki dəfə səs verməyəcək. Ərdoğanın arxasında bir neçə böyük şəhərdən kənarda, eləcə də səsvermə diasporunda geniş şəbəkəyə və ənənəvi dəstəyə malik Ədalət və İnkişaf Partiyası (AKP) dayanır. AKP ilə blokda bir neçə sağçı millətçi partiya və qruplar fəaliyyət göstərir. Parlament seçkilərində AKP 600 mandatdan ən çoxunu qazana bilər. O zaman Ərdoğan AKP-nin tabeliyində olan kiçik partiyaların fraksiyalarını səs çoxluğu əldə edənə qədər sürükləmək imkanı əldə edəcək. Və burada paradoks var - uzunmüddətli perspektivdə artıq baş nazir kimi hakimiyyətə iddia etmək.

Ərdoğan Türkiyənin böyük gücə doğru irəliləməsi dövrünü davam etdirmək hüququ uğrunda həlledici döyüşə hazırlaşır. O, Atatürkün 100 illik yubileyini millətin atasını fəxri məqbərədə qoyub, ideyalarını yaşatmaq və onu daha modern formaya salmaq istəyir. Türkiyə dövlətinin növbəti 100 illik yubileyinin fərqli qurucu atası şişə Ərdoğanın timsalında görünür.

Ərdoğan sərt pərdəarxası təzyiqlər sənətinə yiyələnib. Əgər onun komandasının tutarlı planı olmasaydı, o, bunun üçün fövqəladə əsaslara və hüquqi rıçaqlara malik olmaqla, seçkiləri gələcəyə daşıya bilərdi. Əvəzində Ərdoğan, əksinə, seçkiləri yaxınlaşdırdı - iyundan mayın 14-nə. Bu, Türkiyə tarixində dönüş nöqtəsi olan 14 may 1950-ci il seçkilərinə – kamalistlərin monopoliyasından tutmuş çoxpartiyalı sistemə qədər birbaşa simvolik işarədir. Yeni mühüm seçkinin Türkiyənin 100 illik dövlətçiliyinə son qoyacağı və yeni bir dövlətçiliyin başlanması gözlənilir. Türkiyədə iki cəbhə, iki milli koalisiya toqquşur, müxtəlif ideyalar və simvollar toplusuna müraciət edir, ölkənin uzun gələcəyi ilə bağlı öz versiyalarını müdafiə edir. Seçicilərin seçimi bütün dövr üçün onların həyat tərzini müəyyən edə bilər. Hər şeyinisə sandıq başında həll olunacağını Türkiyə seçicilərindən başqa hər kəs bilir. Çünki Türkiyə heç bir Avropa ölkəsində olmayan demokratik dəyərlərə milli düşüncə tərzinə malikdir.

**V.VƏLİYEV**

BAKURS

# Humanizm siyasətinə sədaqət nümunəsi

***Ölkəmizdə insan amili prioritet məsələdir və dövlət siyasəti daim humanizm prinsiplərinə əsaslanır. Və bu gün Prezident İlham Əliyev ümummilli liderin humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək mayın 8-də imzaladığı “Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” Sərəncamı bir daha göstərdi ki, ölkəmizdə insan amili prioritet məsələdir və dövlət siyasəti daim humanizm prinsiplərinə əsaslanır.***



*Prezident İlham Əliyevin Əfv Sərəncamı bu prinsiplərə sadiqliyin növbəti təzahürüdür*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA İNSAN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİN EDİLMƏSİ SİYASƏTİ





Real həyatda hüquq və azadlıqların səmərəli şəkildə həyata keçirilməsi üçün onların təmin edilməsinə dair hər cür pozuntulara və dövlətdaxili təsirlərə davamlı olan və təsirli təminatlar mexanizmini zəruri edən dəyərlər sırasında insan hüquq və azadlıqlarının qorunması, humanizmi, ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi, məhz bu prinsiplərə xidmət edir. Çünki vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik-hüquqi dövlət quruculuğu, bilavasitə insan hüquq və azadlıqlarının möhkəm təminatlarının yaradılması problemi ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dahi Azərbaycanlı, ulu öndər Heydər Əliyev insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verib, humanizm, mərhəmət və insanpərvərlik prinsiplərini daim ön sırada tutubdur.

Ulu Öndər respublikamızda demokratik-hüquqi dövlət quruculuğu prosesini insan hüquqlarının təmin edilməsi kontekstində səciyyələndirərək, göstərirdi: “...Biz demokratiya yolu seçmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizim hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır”. Şübhəsiz ki, bütün bunlar da ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Humanizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq bu siyasətin və müsbət ənənənin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin humanizm ideyalarına böyük önəm verməsi və buna uyğun addımlar atılması vətəndaş həmrəyliyinə, insanların dövlətə inam və etimadının artmasına xidmət edib. Təsadüfi deyil ki, məhkumların cəzasının yüngülləşdirilməsi, yaxud onların cəzadan tam azad edilməsi tədbirlərini həyata keçirmək məqsədilə 1995-ci ildə Bağışlanma Məsələləri üzrə Komissiya yaradılıb, 2001-ci ildə isə Əfv Məsələləri Komissiyası ilə əvəz olunub. Bütövlükdə, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv Fərmanının imzalanması mühüm əhəmiyyətə malikdir. Ümummilli Lider tərəfindən imzalanan əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib. Bunlarla yanaşı, ölkəmizdə 1998-ci ildə ölüm hökmü aradan qaldırılıb və Azərbaycanın adı Şərqdə bu cəzanı ləğv edən ilk ölkələrdən biri kimi tarixə düşüb.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyuldu. 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edildi və bununla da Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşdü. Bu tarixi addım humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli lider qeyd edirdi: ”Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquqi islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb oldu.

Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Ölüm cəzasının ləğvi Azərbaycanın demokratik hüquqi dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etdi. Məhz bu humanist siyasətin nəticəsidir ki, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Minlərlə məhkumun əfv və amnistiya olunması ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə mənəvi dəyərlər, humanizm hissi aşılamışdır.

## HUMANİZM ƏNƏNƏLƏRİNƏ SADİQLİK AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN ƏSAS PRİORİTETLƏRİNDƏNDİR

Bu gün ulu öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətini və ənənələri Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Mayın 8-də dövlət başçısı tərəfindən “Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” Sərəncamın imzalanması və 801 insanın əfv edilməsi ulu öndərimizin əziz xatirəsinə hörmət və ehtiramın bariz nümunəsidir. Bu, müstəqil ölkəmizin tarixində ən böyük əfv aktıdır. Belə ki, müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli Əfv Sərəncamı 634 məhkuma şamil edilmişdi. Bununla da, cənab İlham Əliyev dövlət başçısı kimi 37-ci əfv Sərəncamını imzalamış oldu.

Həmçinin, böyük qürur hissi ilə deyə bilərik ki, ümummilli liderimizin adını daşıyan fond tərəfindən həyata keçirilən bəşəri əhəmiyyətli insanpərvər layihələr, öz xeyirxah əməlləri ilə bütün dünyada Heydər Əliyev irsini layiqincə təbliğ edən Fondun prezidenti, vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə minlərlə şəxsə şamil olunmuş amnistiya aktlarının qəbul edilməsi, dövlətimizin humanist siyasətinin daha bir təzahürüdür. Bütün bunlar isə bir daha Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin humanizm və yüksək ali dəyərlərə söykəndiyini sübut edir.

Bir sözlə, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ən böyük əfv sərəncamının imzalanması Heydər Əliyev ideyalarının təntənəsi və demokratik-hüquqi dövlətçilik ənənəsinin davamı kimi dəyərləndirilməlidir. Bununla əfv olunmuş şəxslərə vaxtından əvvəl normal həyata qayıtmaq və cəmiyyətdə yenidən özlərini təsdiq etmək imkanı yaradılır. Bütün bunlar bir daha təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin təməlini atdığı humanizm dəyərləri hər zaman Azərbaycanda yaşayacaq! Və kimliyindən, tutduğu mövqedən asılı olmayaraq hər bir vətəndaşın dərdi-səri, qayğıları, problemləri Azərbaycan Prezidenti İlham Əliyevin diqqətində və nəzarətindədir və əfv edilən şəxslər də bu humanist aktdan düzgün nəticə çıxarmalı, bundan sonra Azərbaycan dövlətinin qanunlarına əməl etməlidirlər.

***RƏFİQƏ KAMALQIZI***

# Paşinyanın dərs almalı olduğu ÇƏTİN VƏZİYYƏT

***Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya yollanmasını onun mətbuat xidməti, Rusiya prezidentinin xoş münasibətinin əlaməti kimi təqdim etməklə, ölkə vətəndaşlarını aldadır və onların gözünə kül üfürməyə çalışır. Məsələ burasındadır ki, onun uğursuz Çexiya səfərindən, eləcə də onun hakimiyyət komandasının Vaşinqton danışıqlarına yollanmasından sonra Kremlin hansısa xoş münasibətindən danışmaq gülüncdür və Paşinyan bundan sonra Moskvada heç zaman xoş qarşılana bilməz. Əksinə, bundan sonra hər dəfə Rusiyada olduğu müddət ərzində acınacaqlı, gülünc vəziyyətini erməni baş nazir özü çoxdan qəbul edib.***



Bildiyimiz kimi, hər il 9 may tarixində Rusiya Qələbə bayramı, parad keçirir və Nikolun Moskvaya yollanması yalnız bu tədbirdə iştirak etməsi ilə əlaqədar ola bilər. Amma onu da bilirik ki, erməni baş nazir orada olduğu ərəfədə Rusiya prezidenti ilə gərgin söhbətdən heç bir halda qaça bilməz. O, indi rusların xoşuna gəlməyən "bir sıra məsələlərə" aydınlıq gətirmək məcburiyyətindədir. Ermənistanın baş nazirinin və ümumilikdə, onun komandasının, eləcə də ictimaiyyətinin Qərbə meyil etməsi, yumşaq desək, rusların ürəyincə deyil. Eyni vaxtda həm Rusiyaya, həm də Qərbə üz tutmaları çoxdandır ki, onu da, ölkəsini də rusların hədəfinə çevirib. Bu rakursda Nikol çoxdandır bilir ki, nələrə cavab verməli olacaq. Buna görə də o, Moskvaya yollanmazdan öncə bunu nəzərə almamış olmaz və orada başına gələcəklərinə artıq öyrəncəlidir.

İrəvanın Qarabağdakı rus sülhməramlılarını gözdən salmaq cəhdi indi Paşinyana ucuz başa gələ bilməz və bu baxımdan onun Rusiyada hansı vəziyyətdə olduğunu təsəvvür etmək çətin deyil. Laçın dəhlizinə nəzarət üzrə öz öhdəliklərini yerinə yetirməməkdə Rusiya sülhməramlılarını bir müddət əvvəl ittiham edən Paşinyan Moskvada çox acınacaqlı vəziyyətə düşəcəyini bilməli idi. Əslində, bilməyə də bilməzdi və görünür, Qərbin qarşısında özünü "sadiq nökər" kimi göstərmək istəyirdi deyə, ona həmin anda elə demək lazım imiş. Amma indi dediklərindən, davranışlarından dolayı tamam başqa bir sıxıntısı, çətin vəziyyətə düşməsi qaçılmazdır. Qərb Nikolun "yaralarına" məlhəm verə bilmədi, lakin Kreml onu necə "ağrıdacağını" yaxşı bilir, çünki Rusiyanın Ermənistanda hələ çox istifadə edilməyən rıçaqları var və bunu erməni baş nazirə xatırlatmaq belə ona bəs edəcək ki, əməlli-başlı sıxıntı keçirsin.

Hər zaman Moskvanın dəstəyinə ümid edən ermənilər artıq bu dəstəkdən məhrum olduqlarına görə "deyinməkdə" davam edirlər. Ermənistanda baş tutan mitinqlərdə Rusiya əleyhinə narazılıqların mütəmadi olaraq səslənməsi teztez müşahidə olunur və səbəb də bəllidir. Rəsmi İrəvan elə zənn edirmiş ki, 44 günlük savaş başa çatdıqdan və rus sülhməramlılar bölgədə yerləşdirildikdən sonra onlar Bakını hədəf seçəcəklər və ermənilər də bundan sui istifadə edərək, olmayan ağıllarına gələni edə biləcəklər. Amma görünən odur ki, Ermənistan tərəfinin üçtərəfli Bəyanatın şərtlərini də, öhdəliklərini də yerinə yetirməkdə tərəddüd etdiyini və ümumiyyətlə, bu barədə düşünmək belə istəmədiyini də ruslar bu müddət ərzində daha yaxından müşühidə etmiş oldular. Xüsusilə də, sülhməramlı kontingent separatçıların bəd əməl sahibi, təxribatçı olduqlarına, hələ də Azərbaycan ərazilərinə hərbi təyinatlı yüklər, minalar daşımaq üçün bütün yollara əl atdıqlarına daha yaxından bələddirlər. Belə olan halda onlar hansı şəkildə dəstəklənə, yaxud müdafiə oluna bilərdi? Ümumiyyətlə, Azərbaycan torpaqlarında təxribatçı əməllər törətmək istəyənlər heç kim tərəfindən müdafiə oluna bilməz axı. Təbii ki, ermənilər buna heç əhəmiyyət belə vermədən rus sülhməramlılarından öz çirkin niyyətləri üçün istifadə etməyə çalışdılar və nəticə onlar qətiyyən qane etmədi, çünki Azərbaycanın suveren hüquqlarına müdaxilə edilə bilmədiyini gördülər və ağız büzməyə, rusların əleyhinə sayıqlamağa başladılar. Belə bir halın qarşısını da erməni baş nazir ala bilmədi və heç bundan sonra da qarşısını almaq iqtidarında görünmür. Bu isə Moskvanın diqqətindən qətiyyən yayına bilməzdi və bu baxımdan indi Paşinyanın çətin durumda olması heç də səbəbsiz deyil.

Moskvanın ən çox diqqətindən yayına bilməyəcək məqam həm də KTMT-yə Ermənistan tərəfinin, şəxsən Paşinyanın özünün davamlı olaraq "hücum" etməsidir. İstər bu ilin yanvar ayında həmin hərbi bloka üzv ölkələrin Ermənistanın öz ərazisində hərbi təlimləri keçirməsindən onun imtina etməsi, istərsə də, cəmi ikicə ay sonra, daha dəqiq desək, cari ilin mart ayında baş katibin müavininin kvotasından imtina etməsi Kremldə qıcıq doğurmaya bilməzdi. Çünki bütün davranışları ilə Ermənistan məhz KTMT-yə qarşı olduğunu göstərib, özü də dəfələrlə. Üstəlik, 2022-ci ilin noyabrında təşkilatın İrəvanda keçirilən sammitində Ermənistanın baş nazirinin Kollektiv Təhlükəsizlik Şurasının Bəyannaməsini təsdiqləməkdən imtina etməsini də bura əlavə etsək, indi Moskvada Paşinyanın nələrə cavab verməli olduğunu təsəvvür etmək çətin deyil.

Sözsüz ki, Paşinyan üçün rusların ən ağır, ən çətin sualı Ermənistanın ikili oyun oynaması, Qərbə tərəf meyilli olması, yeri gələndə ayaqları altına belə sərilməsidir. Hətta, Nikolun məhz Qərbin xoşuna gəlmək üçün Rusiyanı, KTMT-ni tənqid etməsi də Moskvanın diqqətindən yayınmayıb. Ola bilsin, erməni baş nazir elə zənn edib ki, Rusiyanın Ukrayna ilə bağlı məsələlərə görə başının qarışdığı zamanda nə etsə buna cavab vermək üçün rusların ayıracaq vaxtı olmayacaq, amma bərk yanılıb. Elə yanıldığını da heç şübhəsiz ki, artıq dərk edib və bundan sonra da hər dəfə səfərdə olanda bir də xatırlanmalı olacaq. Əslində, Vovayeviç hamıdan yaxşı bilməli idi ki, Rusiyanın başı nə qədər qarışıq olsa belə, Cənubi Qafqazdakı mövqeyini ABŞ-a güzəştə getməz və bunun üçün bütün vasitələrini səfərbər etməyə hazırdır. Məhz Vaşinqton danışıqlarının ardınca, elə bu ayın, may ayının sonunda Azərbaycan və Ermənistan liderlərinin Moskvaya çağırılması niyyəti barədə Rusiya kütləvi informasiya vasitələrində qeyd olunanlar da bunu təsdiq edir. Təsdiq edir ki, Rusiyanın regiona marağı zərrə qədər azalmayıb və bunu məhz Qərbə qətiyyətlə göstərmək fikrindədir. Həm də məhz Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması istiqamətində ən real, ən əsas hesab edilən 2020-ci ilin Üçtərəfli Bəyannaməsinin məhz Rusiyanın təşəbbüsü ilə imzalanmasına görə ruslar bir addım öndə olduqlarını dəfələrlə Qərb üçün nümayiş etdirməyə əbəs yerə çalışmırlar. Məqsəd, ilk növbədə Cənubi Qafqazdakı mövqelərini heç kimə güzəştə getməyəcəklərini bəyan etməkdir, hansı ki, bunu elə ABŞ da bilir və indi Paşinyan da bir daha xatırlamalı olur. Çünki bununla bağlı çətin vəziyyətdə olması ona bir dərs olmalıdır.

Əslində, Nikol Paşinyana da, Ermənistan cəmiyyətinə də dərs olmalıdır ki, bu işğalçı ölkə məhz Rusiyanın sayəsində daha böyük itkilərdən yaxa qurtara bildi. Yeri gəlmişkən, bunu Vovayeviç bir neçə gün əvvəl Praqada etiraf etmişdi, erməni diasporu ilə görüşü zamanı. "Əgər kapitulyasiya aktı imzalanmasaydı 30 mindən çox erməni hərbçisi mühasirədə qalardı", deyən Paşinyan Ermənistanın məğlubiyyətinin miqyasının daha böyük olacağını açıq şəkildə bildirmişdi. Qeyd edək ki, bu qədər xəyanətkarlıqları müqabilində başda elə baş nazir özü olmaqla, ermənilər yenə də ruslardan imdad diləyirlər və son anda Rusiyaya möhtac olduqlarını da dərk edirlər. Onu da dərk edirlər ki, Moskva istənilən anda Ermənistana təzyiq rıçaqlarını artıra bilər və bu, onsuz da yıxılmaqda olan bir ölkənin tamamilə süqutu, tarixin arxivinə yazılması deməkdir. Məhz bu reallığı başa düşən Nikol Paşinyanın Moskvada hansı çətin vəziyyətdə olduğunu başa düşmək heç də qəliz məsələ deyil.

Təkcə Ermənistanın baş naziri üçün deyil, ümumilikdə, bütün erməni cəmiyyəti üçün dərs olacaq məqamlar həddindən artıq çoxdur. İndi artıq rəsmi İrəvanın da, Ermənistan vətəndaşlarının da, hətta bu ölkənin müxalifətinin də reallıqları görməsi, dərk etməsi, doğru nəticələr çıxarması üçün kifayət qədər dərs almalı məqamlar var. Bu vaxta qədər ermənilərin qondarma xülyalarının, torpaq iddialarının, mifləşdirdikləri nə varsa hamısının onların əleyhinə olduğu onlar üçün bir dərs olmalı idi. Elə Paşinyanın özü üçün də, ölkəsinin döyüş meydanından qaçan hərbçi fərariləri üçün də, başqasına məxsus torpaqlarda döyüşüb həlak olanların yaxınları üçün də, bütövlükdə erməni cəmiyyəti üçün də təkcə 44 günlük müharibə və Azərbaycanın şanlı Zəfəri bir dərsdir. Bunun ardınca da ölkəmizin diplomatik müstəvidə əldə etdiyi qələbələr, Azərbaycanın yaratdığı reallıqlar, bu reallıqları bütün dünyanın qəbul etməsi daha bir dərs sayılır. Bu dərslərdən düzgün nəticə çıxarmaqda çətinlik çəkmələri, nəticə çıxarmamaları isə, özlərinin də, ölkə başçılarının, şəxsən Nikol Paşinyanın da bir-birinin ardınca düşdüyü çətin vəziyyəti yaradıb. Amma bu hələ ən çətin vəziyyət deyil və qeyri-konstruktiv mövqeyin onlar üçün daha çətin vəziyyət vəd etdiyini yəqin ki, Ermənistanın baş naziri bu dəfə anlamış olar və erməni cəmiyyətinə də anladar.







***İnam Hacıyev***

# AĞDAM: düşmən gözünə daman ağ



***Bu gün azadlığı ilə qürur duyduğumuz, azad siması ilə düşmən gözünə ağ olan Ağdamın inkişafına, yenidən qurulmasına hər dəfə baxanda ürəyimizi sızladan xatirələr canlanır gözlərimiz önündə: 27 il düşmən tapdağı altında qalan və 2020-ci ilin 27 sentyabrından başlanan yolla azadlığına doğru yolçuluğa çıxan Ağdam bir qərinəyə yaxın qara günlər yaşadı. Gözəl hüsnündən əsər-əlamət qalmadı Ağdamın. Vəhşi düşmən bu ağ saraylı, ağ binalı şəhəri yerlə yeksan etdi. Dağıdıldı, yandırıldı, köksü qara tüstü burulğanına büründü. Ağ şəhər qara şəhərə çevrildi. Həm də qara günlü şəhərə...***



27 il idi ki, adından “ağ” sözünü çıxarıb Qarabağın qara bəxti, qara taleyi adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu yerlərin ağ gününə qara tüstü püskürmüşdü. İllərdi yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər - bir ailənin ümidi sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyada məşhur olan Qarabağ atlarının məskəni olan Ağdamın ağ atlı oğullarından, ağ duvaqlı qızlarından “danışırdı”. 27 il əvvəl Qarabağın qoynundakı ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam edəcəkdi. Çünki azərbaycanlıların belə bir deyimi var:

## Təhlil

### Qara günün ömrü az olar

Qara gününün ömrü 27 il olsa da, 27 sentyabrdan başlanan Vətən müharibəsi Ağdamın bu ömrünün sonu oldu. Müzəffər ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, o yuxulardakı ağ atlı oğulların düşmənin qara kabusuna çevrilməsi son qoydu Ağdamın qara günlərinə. Ali Baş Komandanımızın da söylədiyi kimi: “Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi”.

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən, başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldu. Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər səhifəsini yazan azəri övladlarının şücaəti ilə Ağdamı ağdamlılara qaytardı. Həmin gün Ağdamın “çöhrəsini” gülümsəyən gördük. Sevinc göz yaşları axıtdıq. Qəlbimiz qürur hissi ilə doldu...

### 20 noyabr 2020-ci il: Ağdam günü

20 noyabr 2020-ci il. Nə gözəl, yaddaqalan tarixə təsadüf edir Ağdamın ağ gününə qovuşması. Üzünə həsrət qaldığı, dalğası hicranı olan bayrağına qovuşması. Deyirlər, bütün rənglərin təməlində ağ rəng dayanır. Öz bəyazlığı fonunda üç rəngdən yaratdığı üçrəngli bayrağını sinəsinə sancdı, başını dik tutub: “Mən azad oldum, mən doğma Vətənimə qovuşdum”,- dedi Ağdam.

44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq: “Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq”.

Bilirdik ki, düşmən Ağdamda daşı daş üzərində qoymayıb, eşitmişdik. Lakin azadlığından sonra yolumuzu Ağdamdan salanda bunu canlı olaraq gördük. Gördük ki, İlahi, bura vəhşi bir qəbilə hücum edib, sağ qoyduğu bir şey olmayıb ki... Qədim tarixə malik çoxlu sayda memarlıq və incəsənət abidələri ötən 27 ildə yerlə-yeksan olunub Ağdamımızın. XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalası, onlarla muzey, məscid, kitabxana, teatr, məktəb düşmənin vəhşiliyi ilə üzləşib. Meşələr yandırılıb, məhv edilib. Məscidlərdən başqa çirkin məqsədlər üçün istifadə olunub. Lakin vətən oğulları əllərinə silah alıb düşməni torpaqlarımızdan qovduqları kimi, məscidlərimizə də həmin əllərlə təmizlənmək, paklanmaq nəsib oldu. Qeyrətli oğulların sayəsində Ağdamın azan səsi təşnəsinə də son qoyuldu.




Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Ağdam bu doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyirdi. 27 il çöhrəsinə qara rəng çökən Ağdam gülümsəyirdi. Dağıdılmış, viran edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyirdi.







Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlmişdi. Minlərlə evinin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına vermək, buraya yeni növraq bəxş etmək üçün gəlmişdi. Bu səbəbdən də Ağdam gülümsəyirdi. Qələbəsini, azadlığını bayram edirdi. Bütün işğaldan azad olunmuş torpaqlarımız kimi, Ağdamın da üzünə gülümsəmək necə də yaraşır...

## Ağdamın bu günü ilə düşmən gözünə ağ damır

Bir vaxtlar işğal altında saxladıqları Ağdamı darmadağın edən ermənilər hərəkətləri ilə bu torpağın sahibləri olmadıqlarını nümayiş etdirməklə yanaşı, həm də vəhşiliklərini göstərdilər. Bütün dünyaya bəyan etdilər ki, ermənidən qəddar qəbilə yoxdur. Yurd salmaq, ev tikmək nə qədər çətin olsa da, uzun illərə başa gəlsə də, çox insanlar üçün bir ömrə bərabər olsa da, belə imiş Qarabağ torpaqlarının sakinlərinin alın yazısı. Dağıdılacaqmış illərlə qurub-yaratdıqları. Yeməklərindən, geyimlərindən kəsib daşa, quma verib ucaltdıqları yurdları dağıdılacaqmış. İçərisində nə xəyallar qurduqları evlərə həsrət qalacaqmışlar. Nə arzularla əkdikləri ağaclar bar üstündə düşmənin xəyanətkar əllərinə veriləcəkdi.

27 il bu yurdun insanları köçkün həyatı yaşaya-yaşaya tək təsəlliləri Ağdamın ağ günlərini xəyallarında canladırmaq olacaqdı. Amma bir məsələ də var ki, gedənlərin, itirilənlərin hər birini qaytarmaq olar, tək torpaqdan savayı. Qoy yansın, sökülsün, dağılsın evlərimiz. Ta ki torpaqlarımız özümüzünkü olsun, yadlar ona sahib çıxmasın. Qoy evsiz-eşiksiz qalaq, torpağın üzərində süfrə açaq, çörək kəsək, evimiz torpağın üzəri olsun, lakin torpağımız özümüzün olsun. Torpaq varsa, onun üzərində hər zaman gözəl, yaraşıqlı evlər qurmaq mümkündür. Su gələn arxa bir də gələr, deyib atalarımız. O arxın varlığı ilə ona yenidən su gələ bilirsə, torpağın varlığı ilə də yeni yurdlar salına bilər.

Ağdamda da salınacaq o yurdlar. Sevinəcək, güləcək kəndləri, şəhərləri, insanları. Ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi: “İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb... Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır”.

## Dövlətimiz Ağdamı dirçəldir

2021-ci il may ayının 28-də Ağdama səfəri zamanı Prezident İlham Əliyev demişdir: “Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək. Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq”.

Bəli, həmin səfər çərçivəsində Ağdamın Baş Planı təsdiq edildi. Bu planla da Ağdam sürətlə ağ günlərinə qovuşmağa başladı. Ötən il fevralın 13-də dövlətimizin başçısının və birinci xanımın “Ağdam-1” və “Ağdam-2” elektrik yarımstansiyalarının, “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirakları ilə Ağdam 27 ilin qara libasını əynindən çıxarıb öz tarixi bəyaz donunu geyindi. İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün “Azərenerji” ASC tərəfindən “Xındırıstan” yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xəttinin, Ağcabədidən Xındırıstana, oradan da “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabelin çəkilməsi, bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xəttinin gətirilməsi bu rayonun ağ günlərini fonunda düşmənin qara günlərinə çevrildi. Onlara sadəcə kənardan bu hadisələri izləməklə yanıb-yaxılmaq qalır.

## Ağdamı şən görmək nə qədər xoşdur...

Hər dəfə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri ürəyimizi qürurla doldurur. Müzəffər Ali Baş Komandanın və 44 günlük Vətən müharibəsi dövründə xalqın təsəllivericisi olan Mehriban xanım Əliyevanın bu torpaqlara səfəri Zəfərimizin üzərinə yeni bir Zəfər əlavə edir. Azad torpaqlarımızda həyat bərpa olunduqca, onlara öz əvvəlki görkəmlərinin verilməsi ilə bağlı planlar həyata keçirildikcə düşmənin bağrının çatlamasını duyur və fəxr edirik ki, onlara bu narahatlığı yaşada bilirik. Çünki biz 30 il narahatlıqla, torpaqlarımızın həsrəti, hicranı, nisgili ilə yaşamışıq.

Dövlətimizin başçısının azad torpaqlarımıza hər səfəri onlara yeni həyatın bəxş olunması ilə nəticələnir. Elə Ağdamın da “üzünün” güldüyünü gördük növbəti səfərdə. Onun hüsnünə vurulan hər naxış bu gözəl şəhərin görüntüsünü dəyişir, 27 illik nisgilini sevincə çevirir. Ağdam həm də ona görə sevinir ki, sinəsində görülən hər bir iş onu sakinlərinə, doğmalarına yaxınlaşdırır. Çünki torpaq o vaxt bəxtəvərdir ki, sinəsi üzərində doğmalarının addım səslərini dinləyir. 27 illik sükutdan sonra Ağdam bu səsi duydu. Bu səsin daha kütləvi şəkildə duyulması isə Ağdama Böyük Qayıdışla olacaq. O gün isə çox yaxındadır. Səbr et, Ağdam, doğmalarınla birlikdə xoş, sevincli günlər səni gözləyir...

**_Mətanət Məmmədova_**

# Hadrut turizm mərkəzinə çevrilir




2003-cü ildə Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində respublikamız siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınıb. Bu illər ərzində Azərbaycanda bütün sahələr yenilənib, müasirləşib. Ən başlıcası, insanların həyat səviyyəsi dəyişib, əhalinin rifahı daha da yaxşılaşıb, həyatımızın bütün sahələri yeni, modern əsaslarla qurulub. Bütün sahələrdə həyata keçirilən layihələr Azərbaycanın hər bir bölgəsində turizm üçün geniş imkanlar açıb. Ölkəmizin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri turistlər üçün maraq kəsb etdiyindən bura səfər edənlərin sayı nəzərəçarpacaq dərəcədə artıb.

30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızın da turizm potensialı genişdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə aparılacaq abadlıq-quruculuq işləri turistlərin diqqətini həmin məkanda olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edəcək. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşa çevrilib. Ermənilərin qurbanına çevrilən abidələrimiz bərpa və təmir edilərək, yeni həyatlarına qovuşurlar. Əminliklə vurğulayaq ki, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".

### UĞURLU "DƏMİR YUMRUQ" ƏMƏLİYYATI

İşğaldan azad olunan ərazilərimiz sırasında Hadrut qəsəbəsi də var. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa etdi. Vətən müharibəsinin ilk günlərində Hadrutun azad edilməsi Azərbaycan Ordusunun döyüş meydanındakı üstünlüyünü daha da gücləndirdi. Çünki Hadrut, ilk növbədə, ermənilərin daha çox möhkəmləndiyi strateji mövqe olmaqla yanaşı, həm də düşmənin Füzuli və Cəbrayıl istiqamətlərinə əlavə qüvvə göndərməsi üçün mühüm bir ərazi idi. Lakin müzəffər Azərbaycan Ordusunun planlı və peşəkar əməliyyatı erməniləri cəbhənin hər bir istiqamətində məğlub etdiyi kimi, Hadrutda da darmadağın olmasına gətirib çıxardı. Müzəffər Ali Baş Komandanımızın dəmir iradəsi və uğurlu "Dəmir yumruq" əməliyyatı ilə qısa bir zamanda işğalda olan torpaqlarımız azad olundu. Xalq-Ordu-Lider birliyi sayəsində bu Qələbəni qazanmış olduq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

### QAFQAZ ALBANİYASININ TARİXİ-MƏDƏNİ İRSİNƏ AİD MƏBƏD ABADLAŞDIRILIR

Müharibə bitdikdən sonra abadlıq-quruculuq işləri qısa bir zamanda sürətləndi. Hadrutda da böyük bir canlanma müşahidə olunur, Hadrutun bərpası işlərinə start verilib. Hadrutun tarixi hissəsi yenidən qurulur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd edib ki, biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik. Bu gün artıq qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpası və abadlaşdırılması nəzərdə tutulub. Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq. Bu haqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məlumat verilərkən bildirilib. Bu xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb. Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək.



### YERALTI VƏ YERÜSTÜ SƏRVƏTLƏRİMİZƏ QARŞI EDİLƏN TERROR

Əlbəttə ki, azad olunmuş ərazilərimizin hər məkanı turiz üçün əlverişli məkandır. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə turizm infrastrukturunu tamamilə məhv ediblər. İşğal dövründə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib. Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.

Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb.



Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş çüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkinən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.

**Nəzakət ƏLƏDDİNQIZI**

---



## "Təxribatların törədilməsi sülh danışıqlarını tamamilə şübhə altına alır"

***"Sərhəddə törədilən erməni təxribatları təsdiq edir ki, Ermənistanın sülh barədə verdiyi bəyanatların heç bir əsası yoxdur". Bunu hərbi ekspert Ədalət Verdiyev "Səs" qəzetinə açıqlamasında deyib.***

Onun sözlərinə görə, Ermənistan heç bir zaman sülh danışıqlarında səmimi olmayıb və belə bir niyyəti də indi də yoxdur: "Əvvəllər olduğu kimi də, bu dəfə də danışıqlar öncəsi Ermənistan tərəfi genişmiqyaslı təxribatlara əl atıb və bu təxribatlarının qarşısının alınması üçün Azərbaycan tərəfi kifayət qədər ciddi tədbirlər görəcək. Adekvat cavab tədbirləri çərçivəsində erməni ciddi şəkildə cəzasını alacaq. Bu təxribatların törədilməsi sülh danışıqlarını tamamilə şübhə altına alır. Azərbaycan ordusunun hərbi qulluqçusu öz tarixi torpağından açılan atəşlə xəsarət alırsa, belə bir vəziyyətdə hansısa sülh danışıqlarından söhbət gedə bilməz. Ermənistana sülh lazım deyilsə, Azərbaycana bu sülh heç lazım deyil. Bizim üçün sülh Azərbaycan əraziləri 30 illik işğal altında qalan müddətdə lazım idi. İndi sülh daha çox Ermənistana lazımdır".

***GÜLYANƏ***

# Milli Xalça Muzeyinin Şuşa filialı yeni həyatına qovuşub

*Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Azərbaycan xalçasını dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirməsi əbəs deyil. "Mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır", - deyə Cənab Prezident çıxışlarının birində bildirib. Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini bəzəyən Azərbaycan xalçaları xalqımızın fərqli milli sərvətidir.*









Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Həyat eşqi və parlaq koloriti ilə seçilən Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Mənbələrdə göstərilir ki, onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik.

Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır.

## MİLLİ SƏNƏT DƏYƏRLƏRİMİZİ YAŞADAN TARİXİ MƏKAN

1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Qarabağ və ətraf ərazilər işğal olunmuş, bölgənin tarixi-mədəni dəyərləri məhv edilmiş, düşmən tərəfindən talan olunmuşdu. Onların sırasında Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 26 sentyabr 1985-ci il tarixli 502 №-li əmrinə əsasən, əsası qoyulan Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı da var. Fəaliyyətinə 19 may 1987-ci il tarixindən general Səməd bəy Mehmandarova məxsus XVIII əsr abidəsi olan malikanədə başlayıb. Qədim tarixə malik Qarabağ, o cümlədən Şuşa xalçalarının tədqiqi, təbliği, qorunub-saxlanılması məqsədilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin əsas fondundan – milli sənət dəyərlərimizi yaşadan xalça və xalça məmulatları, bədii tikmə, milli geyim və zərgərlik nümunələri sərgilənməsi üçün Şuşa filialına göndərilib.

## ŞUŞA FİLİALININ 246 ƏDƏD EKSPONATINDAN 183-Ü TƏXLİYƏ EDİLİB

Filial beş il, 1992-ci il may ayının 8-də Şuşa şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunduğu günə kimi fəaliyyət göstərib. Azərbaycan və Ermənistan arasında baş vermiş hərbi münaqişə 1992-ci ildə filialın öz fəaliyyətini dayandırmasına səbəb olub. 1992-ci ilin 29 fevral tarixində Şuşa filialının 246 ədəd eksponatından 183-ü (80 ədəd xovlu xalça, 35 ədəd xovsuz xalça və xalça məmulatı, 29 ədəd bədii tikmə və milli geyim, 39 ədəd zərgərlik məmulatı) təxliyə edilərək Bərdəyə, daha sonra Bakı şəhərinə gətirilərək, Azərbaycan Xalça Muzeyinin əsas fonduna təhvil verilib. Şuşada fəaliyyət göstərən 8 muzeydən yalnız Azərbaycan Xalça Muzeyi əşyalarının yarıdan çoxunu, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev muzeyi isə əşyalarını qismən xilas edə bilib. Xilas edilmiş eksponatlar arasında XIX–XX əsrləri əhatə edən Qarabağın ənənəvi "Şabalıd-buta", "Malıbəyli", "Qoca", "Bəhmənli", "Atlı-itli", "Xanlıq", "Çələbi", "Açma-yumma" çeşniləri əsasında toxunmuş xovlu xalçalar, məişətdə geniş istifadə olunan xovsuz xalçalar və xalça məmulatları, bədii tikmə, milli geyimlər və zərgərlik nümunələri var. Bu günə kimi, Şuşa filialı öz fəaliyyətini Azərbaycan Xalça Muzeyində davam etdirmişdir.

## XIX ƏSRİN İKİNCİ YARISINDA TİKİLMİŞ TARİXİ BİNA

Yenidən qurulan Şuşamızda tarixi, dini və mədəni abidələrimiz də təmir və bərpa olunur, yeni həyat və nəfəs verilir. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Milli Xalça Muzeyinin Şuşa filialının açılışında iştirak ediblər. Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib. Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi.Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış olublar. Ekspozisiyada vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir.

Burada ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə edə bilmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Qarabağın, xüsusilə də Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti haqqında məlumatlar verilir. Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır.Artıq bir çox abidələrimiz, memarlıq nümunələrimiz kimi, öz həyatına qovuşan Milli Xalça Muzeyinin Şuşa filialı tarixi məkanda fəaliyyətini davam etdirəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# “Genişmiqyaslı fəlakət baş verməmiş Metsamor AES bağlanmalıdır”

***Rusiyalı mühəndis-fizik, Radioaktiv Tullantıların Təhlükəsizliyi proqramının eksperti Andrey Ozarovski “Caliber” analitik mərkəzinə müsahibəsində nüvə apokalipsisinin mümkünlüyünün nə qədər böyük olması və bunun qarşısını almaq üçün nəyin lazım olduğu barədə fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***





**- Nüvə müharibəsi təhlükəsi sözün əsl mənasında havada asılıb və bu barədə getdikcə daha çox müdaxilə edirlər. Yaxın gələcəkdə baş verəcəkmi və onun başlanmasına nə səbəb ola bilər?**

- Fakt budur ki, nüvə silahı olan ölkələr onu saxlamaq üçün çoxlu pul xərcləyirlər. Nüvə bombası orta əsr qılıncı deyil ki, bir dəfə düzəldib divardan asasan və o, hər an istifadəyə hazır olsun. Nüvə silahı nüvə yanacağı zəncirində olan müəssisələrin işini tələb edir və ona sahib olan ölkələr bu və ya digər dərəcədə onlardan apriori istifadə etməyə hazırdır. Və onlardan ən azı biri, məsələn, Fransa dedi ki, bəli, biz şəhərləri bombalamaq, dinc insanları öldürmək istəmirik, bütün bunlar barbarlıqdır və orta əsrlərə qayıtmaqdır. Təəssüf ki, bütün nüvə ölkələrinin müasir hərbi doktrinası heç də ondan imtina etməyi təklif etmir. Deməli, nüvə silahına malik olan ölkənin ondan istifadə etməyə hazır olması barədə bəyanat təkcə Rusiyaya deyil, digər dövlətlərə də aiddir.

İndi biz yenidən nüvə arsenallarının ixtisarına doğru tendensiyanın iflasa uğradığının şahidi oluruq, baxmayaraq ki, bu sahədə 90-cı illərdə böyük uğurlar əldə edilib. Şəxsən mənim üçün bir ekoloq kimi bütün digər razılaşmalarla yanaşı, 34 ton plutoniumun məhv edilməsi ilə bağlı razılaşmaların əldə olunması vacibdir. Axı plutonium nüvə bombası üçün doldurma kimi istifadə edilə bilən materialdır.

Bununla belə, həm Rusiya, həm də ABŞ hazırda nüvə silahlarının yayılmamasına dair bir sıra müqavilələrdən çıxır və bu, son dərəcə mənfi tendensiyadır. Bu, nüvə silahlarının modernləşdirilməsinə sərbəstlik verir: Birləşmiş Ştatlar artıq yeni texnologiyalardan istifadə etməklə nüvə silahı istehsalını bərpa etmək niyyətində olduqlarını bəyan edib, bu da məhz nüvə silahının əbədi olaraq saxlanıla bilməyəcəyi ilə bağlıdır. 70-80-ci illərdə istehsal olunan cihazların istifadə müddəti bitir və indi onları yeniləmək lazımdır. Bütün bunlar Soyuq Müharibə dövründə olduğu kimi iki ölkənin deyil, bir neçə ölkənin, məsələn, Çinin də qatılacağı yeni silahlanma yarışı üçün növbəti addım ola bilər. Həm də sözün əsl mənasında bu sahədə sıçrayış edən KXDR də “nüvə klubu”na qoşulmaq istəyir. Dünya getdikcə daha təhlükəli olur. Bundan əlavə, yerli münaqişələr var: Rusiya və Ukrayna arasındakı müharibədən əlavə, bunlar Hindistan və Pakistan və ya eyni Şimali və Cənubi Koreya arasındakı çəkişmələrdir, əgər toqquşmalar gərginləşsə, nüvə silahından istifadə olunması ehtimalı var.



**- İsrail və İran da var. Tehran, israilli ekspertlərin fikrincə, atom bombası yaratmağa yaxındır. Yəni İranın atom bombası illüziyadır, yoxsa realdır?**

- Nüvə silahının mövcudluğuna gəlincə, dünya ictimaiyyəti əmindir ki, bu, rəsmi olaraq tanınmasa da,

İsraildə var. Onu da xatırlatmaq yerinə düşər ki, Nüvə Silahlarının Yayılmaması Müqaviləsini pozaraq Hindistan, Pakistan və KXDR də onları əldə edib. Ən dəhşətli kütləvi qırğın silahı bütün planetə yayılır, onun yaradılması üçün artıq heç bir xüsusi sirr yoxdur. Amma bu fonda belə İranın nüvə proqramı xüsusi narahatlıq doğurur. Bəzi İran müəssisələrinin yaxınlığında nümunələrdə qeyri-səciyyəvi yüksək uran-235 konsentrasiyasının aşkar edildiyi barədə məlumatlar var, yəni İran rəsmi olaraq zənginləşdirilmiş uranın yalnız daxili enerjini təmin edəcəyini bəyan etsə də, onun hərbi sahədə istifadə olunacağı açıq-aydındır. Beləliklə, hər şeyə baxsaq, texniki cəhətdən İran hazırda partlayıcı nüvə qurğusu istehsal etmək üçün bütün şəraitə malikdir- həm zənginləşdirilmiş uran, həm də plutonium əsasında.

Qeyd etmək lazımdır ki, İranda Buşehr AES-i Rosatom tikib, burada nüvə xammalı, hətta silaha yararlı plutonium da istehsal edə bilər. Təfərrüatlara varmadan, sadəcə olaraq bir atom elektrik stansiyasının işini nüvə yanacağının boşaldılmasının fərqli bir rejiminə keçirməklə nüvə bombası istehsalı üçün kifayət qədər yaxşı xammal əldə edə biləcəyini iddia etmək olar. Təəssüf ki, nüvə silahları indi beynəlxalq konvensiyalarla qadağan olunmayan yeganə kütləvi qırğın silahıdır. Çünki heç bir nüvə dövləti bu ideyanı dəstəkləmədi. Lakin kimyəvi, bakterioloji və digər kütləvi qırğın silahları qadağandır.

**- Bu gün Ermənistanın Metsamor Atom Elektrik Stansiyası da ciddi narahatlıq doğurur. Bu stansiya Cənubi Qafqaz üçün nə dərəcədə təhlükəlidir?**

- Dərhal qeyd etmək lazımdır ki, hər hansı reaktoru olan istənilən AES ümumən təhlükəlidir. Metsamordakı atom elektrik stansiyasının xüsusiyyətləri isə ondan ibarətdir ki, oradakı reaktorlar arxaikdir, bunlar 60-70-ci illərin qurğularıdır - WWR 440 reaktorları, müəyyən mənada, bəlkə də Çernobıldan bir az daha etibarlıdır, ancaq mühəndislik, texniki problemlər, təhlükəsizlik analizi tam təhlilinə görə Avropa İttifaqında təhlükəli olaraq tanınan və dayandırılmalı olanlar reaktorlardandır. Ermənistanın AES-in əsas problemi, fikrimcə, iki mühüm aspektdədir: onun yüksək hündürlükdə yerləşməsi, qəza zamanı radioaktiv maddələrin spektrini xeyli artırır. Digər problem isə tullantılarla bağlı vəziyyətdir. Həqiqətən də Metsamor AES-in ömrünün uzadılması, üstəlik onun modernləşdirilməsi qərarından sonra bu məsələ daha da aktuallaşıb. Sovet dövründə, mövcud müqavilələrə əsasən, AES-dən bütün işlənmiş yanacaq emal üçün respublikalardan RSFSR-ə ixrac edilirdisə, indi Rusiya qanunvericiliyi buna mane olur. Beləliklə, təhlükəsizlik problemi, o cümlədən tullantı problemi tam inkişaf edir. Ermənistanın atom elektrik stansiyası şübhəsiz ki, böyük narahatlıq doğuran obyektdir.

Eyni zamanda, stansiya ölkənin energetika sektorunda böyük paya malikdir və onun hakimiyyət orqanları onu qətiyyən bağlamaq niyyətində deyil...

Bununla belə, mən inanıram ki, bütün Qafqaz üçün ekoloji riskləri azalda biləcək bəzi ümidlər və alternativlər var. Məsələn, Ermənistan qonşu dövlətlərlə, o cümlədən, Azərbaycanla münasibətlərini yaxşılaşdırsa, bərpa olunan enerji mənbələrindən, ilk növbədə külək və günəş enerjisindən istifadəni sürətləndirmək tamamilə mümkündür. Bu yeni “yaşıl” texnologiyaların təşviqi bu köhnə, təhlükəli zavodu işlək vəziyyətdə saxlamaqdan qat-qat sərfəli və rahatdır. Amma bu, daha çox Ermənistan rəhbərliyinə aid olan məsələdir- ümumiyyətlə, mənə elə gəlir ki, təkcə Azərbaycanın deyil, Avropa İttifaqının da bu məsələyə münasibətini nəzərə alsaq, Ermənistanın geniş miqyaslı bərpa olunan enerji proqramının hazırlanması üçün müəyyən qədər maddi və mühəndislik yardımı almaq şansı var. Bu, ölkə üçün ən yaxşı addım olacaq. Ermənistan AES-də ciddi qəza baş verməmiş və ya radioaktiv tullantı ətrafı zəhərləməmiş onu bağlamaq lazımdır.

***Tərcümə - Elçin Bayramlı***



# Leş qarğası

**Lalə Mehralı**

***Bir axşam işlərimi bitirib, internetdə, sosial şəbəkələrdə var-gəl edirdim. Sosial şəbəkə sakinləri nələr yazırlar, nələr paylaşırlar deyə baxırdım. Bir dostun səhifəsində canlı yayım videosuna rast gəldim, başqa bir ölkədə intihar etmək üçün yüksək mərtəbəli bir binanın damına çıxmış gənc oğlana təhrikedici sözlər deyirdi yerdəki qələbəlik. Oğlan fikirləşirdi, atmaq istəmirdi məncə özünü. Amma səbrini sınayırdılar yerdəkilər. Təxminən 10 dəqiqəlik video idi, bəlkə 4-5 min adam vardı yerdə, hamısı əlində telefon, böynu əyri vəziyyətdə oğlanı çəkirdilər. Səbrsiz-səbrsiz gözləyirdilər, özünü nə vaxt atacaq deyə...***

O kütləyə ürəkağrısı ilə baxdım. Tum çıxartlayan kim, gülən kim, əylənən kim, selfi çəkən kim. Yuxarıdan onları izləyən gəncin intiharının bəlkə də səbəbi başqa idi, amma onu intihara sürükləyən də bu kütlə deyildimi? Etinasızlıq, vecsizlik... Hələ o gəncə o kütlənin qışqıraraq dedikləri. Tərəddüdü olan gənci daha da təşviq edirdilər dedikləri ilə. O kütlə insanlara bənzəmirdi, daha çox leş üstünə yığılmış qarğaları xatırlatdılar mənə.

Videonun altındakı rəy yerini açdım, açmaz olaydım. İnsanlar necə azğınlaşıb, necə vecsizləşib, necə etinasızlaşıb. Heç kim intihar edənin probleminin nə olduğu ilə maraqlanmırdı, heç kim onun yaxın saniyələrdə ölmə ehtimalına heyifslənmirdi...

“Çıxmışkən at özünü, sən də qurtul, biz də”.

“Atsaydı indiyədək atardı, boşuna gözləyirlər”.

“Ya sevgilisi atıb, ya da arvadı xəyanət edib, ona görə çıxıb ora”.

“Özünü atsan tarixə canlı yayımda ölən adam kimi düşəcəksən”.

“Danışsa yaxşı olardı, boş-boş gözləyirik, heç olmasa vaxtımız səmərəli olardı”.

“Yorulmadın orada boş-boş durmaqdan? Biz yorulduq”.

“Kişi kimi işini bitir, biz də işimizə-gücümüzə gedək”.

“Ya düş, ya da at özünü, işimiz-gücümüz var”.

“Oradan özünü atsan ölməyəcəksən, şikəst qalacaqsan, daha hündür yer seçmək lazım idi”.

“Yox, atmayacaq, boşuna gözləyirik”.

“Bu cür axmaqlar niyə intihar etmək üçün ora çıxıb 2 saat gözləyir ki? Atacaqsan çıxan kimi at özünü, nə gözləyirsən?”.

“Yüz faiz məşhur olmaq istəyir, ona görə çıxıb ora”.

“İnternet paketim bitdi sənin ucbatından”.

“Selfi çəkənlərin rekord bəyənməsi olacaq”.

Bu kimi nə qədər şərh vardı o videonun altında, inanmazsınız. İnsanlıq necə rəzil vəziyyətə gəlib çıxıb, necə dönülməz yola girib, dəhşətə gəldim oxuduqca. Mən bu qədər təsəvvür etmirdim, bu qədər olduğunu bilmirdim. Vallah bilmirdim...

Yaşamaq yerinə intiharı seçənlər, sizi öldürmək istəyənlərə rəğmən yaşayın.

Özünü asmaq fikrinə düşən qırmızı donlu qız, sən də yaşa!

9-cü mərtəbədən özünü atmaq istəyən qoşa hörüklü məktəbli, mütləq yaşa!

Ömrünün ən gözəl çağına – tələbəlik illərinə hazırlaşan vaxt intiharı düşünən gənc, əsla yenilmə!

Ər zülmünə dözməyən gənc ana, ölüm çarə deyil...

İnadla, israrla yaşamağa çalışın. İntiharınız zamanı həvəslə telefonu ilə sizi çəkən o leş qarğalarına yaşatmayın bu həzzi.

Sizi sizdən başqa anlayanlar da var, bunu düşünün. Dərdiniz, probleminiz hər nə olursa-olsun mütləq bir həll yolu vardır. Mütləq!

# Ölkəmizdə kimlər harada ov edə bilər?



***Ət və geyim ehtiyaclarını təmin etmək üçün ilk insanların başladığı ovçuluq, sivilizasiyanın inkişafı ilə paralel olaraq dolanışıq vasitəsi olmaqdan çıxaraq idman və əyləncəyə çevrilmişdir. Ovçuluq, Qədim və Orta əsr hökmdarlarının hərbi təlim əvəzinə tətbiq etdikləri idman oyunudur. Təkbaşına və ya qrup halında ov etmək bu gün bütün sivil dünyada bir idman növü kimi qəbul edilsə də, heyvanların nəsli kəsildiyi, milli sərvətlər israf edildiyi üçün müəyyən məhdudiyyətlərə məruz qalır. Ovçuluq xüsusilə heyvanların çoxalma mövsümlərində qadağandır.***





SİA mövzu ilə bağlı araşdırma aparıb.

Gəlin dünya praktikasına nəzər yetirək. Məsələn, qardaş Türkiyədə ötən il balıq ehtiyatlarının özünü yeniləməsi və çoxalma fəaliyyətini həyata keçirməsi üçün 15 aprel - 31 avqust tarixləri arasında sənaye balıqçılarına balıq ovu qadağası qoyulmuşdu. Bu fəaliyyətlərin vaxtaşırı dayandırılması ilə dəniz ekosisteminin tarazlığı qorunur. Həddindən artıq balıqçılıq fəaliyyətləri zamanla kommersiya balıq növlərinin azalmasına səbəb olur və ekosistemdə bir növün azalması digər növlərin həddindən artıq çoxalmasına səbəb ola bilər. Ona görə də bu qadağalar vacibdir.

Bu gün bəzi Afrika, Avstraliya və Cənubi Amerika qəbilələri hələ də ovçuluqdan çörək qazanırlar. Ovçuluq bir idman növü kimi qəbul edilsə də, bir çox cəmiyyətlərdə, xüsusən də müsəlmanlar arasında müzakirə mövzusu olub. Araşdırmalara görə, dünyada ov istehsalının həcminə görə Çin ən böyük paya malikdir (15,2%). Ondan sonra isə İndoneziya, Peru, Hindistan, Rusiya, ABŞ (ABŞ) və Vyetnam gəlir.

## Ov etmək dinimizdə günahdır?

Dinimizdə yeməsi halal olan quru və dəniz heyvanlarının ovlanması mümkündür. Lakin ovda həddi aşmaq və yemək niyyəti olmadan kef üçün heyvan öldürmək günahdır. Peyğəmbərimiz "Kim bir sərçəni və ya ondan böyük heyvanı haqsız yerə öldürərsə, Allah Qiyamət günü ondan bu barədə soruşar" deyə buyurmuşdur.

Ümumiyyətlə, çoxalma dövründə heyvanları ovlamaq günahdır. Ov etmək olar, amma bunu ruzi üçün etmək lazımdır. Namık Kamal kef üçün günahsız heyvanları öldürənlər üçün "seyyad-ı biinsaf (amansız ovçu)" ifadəsini işlədir. Bunun bir hekayəsi var. Namık Kamal gəncliyində atdığını vuran ti ovçu olub. O, Sofiyada maralı nişan alır və bir neçə saniyə ərzində maral yıxılır. Heyvan qan içində ölərkən, onun arxasınca iki balası gəlir. Balalar hər şeydən xəbərsiz olaraq analarının sinəsini qucaqlamağa çalışırlar. Çarəsiz ana ayaqları ilə balalarını itələməyə çalışır, üzlərinə kədərli baxışla baxır. Nəhayət, yazıq heyvan cəlladına zillənərək baxdıqdan sonra başını aşağı salır. Bu hadisədən sonra Namık Kamal əlindəki tüfəngi ataraq bir daha ova getməyəcəyinə and içir.

## Qurbana əziyyət etməyin

İslamda qurban dostlara, qohumlara, qonşulara kəsilmək, kasıblara, imkansızlara paylanmaq məqsədi ilə kəsilir. Qurban kəsərkən belə heyvanlara qarşı mərhəmətli olmaq lazımdır. Bu rəhmli olmağı sevən İslamın əmridir. Hz. Peyğəmbərimiz buyurmuşdur: "Heyvan kəsməli olduğunuz zaman bunu yaxşı şəkildə edin. Onlara işgəncə verməyin". Bu baxımdan kəsim zamanı heyvanlar anesteziya edilməli, kəsim prosesi tez və işgəncəsiz aparılmalıdır.

## Azərbaycanda hansı ovçuluq təsərrüfatları var?

Azərbaycanda ovçuluq təsərrüfatları ötən əsrin 60-cı illərindən fəaliyyət göstərməyə başlamışdır. Heyvanların optimal sayını populyasiya səviyyəsində saxlamaq üçün maksimal miqdarda ov məhsulları almaq məqsədi ilə vəhşi heyvanların və quşların əldə olunmasını təmin edən təsərrüfat sistemidir.

Son illərdə ovçuluq sahəsinə maraq daha da artmışdır. Azərbaycan ərazisində ovlanmasına icazə verilən heyvan və quş növlərinin zəngin olması burada ovçuluğun geniş yayılmasına şərait yaradır. Hal-hazırda ölkədə 196 423 min hektardan artıq bir ərazini əhatə edən 10 ovçuluq təsərrüfatı fəaliyyət göstərir. Bunlardan biri Respublika əhəmiyyətli, 9-u yerli əhəmiyyətlidir.

**Uludüz Ovçuluq Təsərrüfatı** - Respublika əhəmiyyətli olub, Şamaxı rayonunun inzibati ərazisində yerləşir, sahəsi 5500 hektardır. Dağətəyi zonada yerləşdiyindən burada yayı quraq keçən mülayimisti, yağıntıları bərabər paylanan mülayimisti və soyuq iqlim tipi hakimdir. Ərazi dağlıq relyefə malik olduğuna görə bura heyvanların və quşların yaşaması üçün çox əlverişlidir. Dağətəyi tirə-təpəli kolluğu əhatə etdiyinə görə ərazidə meşə qırıntısından sonra əmələ gəlmiş itburnu, yemişan, əzgil, palıdın kol forması, seyrək qaratikan və s. kimi kolluq bitkilər üstünlük təşkil edir. Heyvanat aləmindən əsasən cüyür, qaban, ayı, çöl pişiyi; quşlardan qırqovul, bildirçin, kəklik və s. üstünlük təşkil edir. Uludüz Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd Dağıstan turu, çöl donuzu, qonur ayı, qırqovul və s. ov obyektlərin artırılması, bərpası və ovlanmasıdır.

**Yaşma Ovçuluq Təsərrüfatı** - Xızı rayonunun inzibati ərazisində yerləşir, sahəsi 4



000 hektardır. Ərazinin Xəzər dənizinə çıxışı olduğuna görə ovçuluq təsərrüfatında su bataqlıq sahələr geniş yayılmışdır və iqlimi mülayim, havası qurudur. Ərazi əsasən qamışlıqlarla, su bataqlıq sahələri ilə zəngin olduğundan burada su bataqlıq quşlarına (ördək, qaz, cüllüt və s.) və boz dovşan, tülkü, canavar kimi heyvanlara rast gəlmək mümkündür. Yaşma Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd köçəri quşların mühafizəsi və səmərəli istifadəsidir.

**Mahmudçala Ovçuluq Təsərrüfatı** - Biləsuvar rayonunun inzibati ərazisində yerləşir, sahəsi 7136 hektardır. Ərazi əsasən isti və quru iqlim tipinə malikdir və buna görə də yay aylarında Təsərrüfatın su ehtiyatını təmin edən Balharı çayının qurumasına səbəb olur.

*Ardı Səh. 14*



# Ölkəmizdə kimlər harada ov edə bilər?

Əvvəli-Səh-13

Nəticədə Təsərrüfat ərazisində yerləşən göldə su problemi yaranır. Təsərrüfatın müəyyən hissəsi az miqdarda şorakət torpaqlardır. Ona görə də florası quru çöl bitkilərindən şahsöyüdü, yulğun və s. kimi kolluqlardan ibarətdir. Ərazidə ən çox canavar, tülkü, boz dovşan, çaqqal, turaca, eləcə də çoxlu su bataqlıq quşlarına rast gəlinir. Eyni zamanda Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş quşlardan burada soltantoyuq, qaranaz və ərsindimdik nəsil verir. Mahmudçala Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd köçəri quşların mühafizəsi və ovlanmasıdır.

**Zəvvar Ovçuluq Təsərrüfatı** - Cəlilabad rayonunun inzibati ərazisində yerləşir, sahəsi 20 000 hektardır. Bu təsərrüfat fəaliyyətini Mahmudçala Ovçuluq Təsərrüfatının yaxın qonşusu kimi davam etdirir. Aran-düzənlik relyefinə malik olan ərazi okean səviyyəsindən aşağıda yerləşdiyindən buradan müvəqqəti axarlı çaylar keçir və mülayim-isti iqlimə malikdir. Heyvanat aləmi dovşan, qaban, porsuq, canavar, tülkü, çaqqal və qunduz, quşlardan qartal, qarğa, turac, torağay, ördək, qaz, qaşqaldaq, qırqovul, leylək və s.-dən ibarətdir. Zəvvar Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd su bataqlıq quşlarının və xəzdərililərin mühafizəsi və səmərəli istifadəsidir.

**Qırmızıkənd Ovçuluq Təsərrüfatı** – Masallı və Neftçala rayonlarının inzibati ərazisində yerləşir, sahəsi 10 000 hektardır. Cənubdan Qızılağac Dövlət Təbiət Qoruğu, şimaldan isə Zəvvar Ovçuluq Təsərrüfatı ilə həmsərhəddir. Ərazinin iqlimi yayı quraq keçən mülayim-isti yarımsəhra və quru-çöl tiplidir. Burada su bataqlıq quşları ilə yanaşı qaz, ördək, bəzgək, su ilanı, tısbağa, çaqqal, canavar, dovşan, porsuq, çöl donuzu, tülkü və s. heyvanlara rast gəlinir. Təsərrüfatın əsas su balansı Mahmudçala və Zəvvar Ovçuluq Təsərrüfatlarının ərazisindən keçən Balharı çayı və su kollektorları ilə təmin olunur. Qırmızıkənd Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd su bataqlıq quşlarının və xəzdərililərin mühafizəsi və səmərəli istifadəsidir.

**Ağzıbir Ovçuluq Təsərrüfatı** - Şabran rayonunun inzibati ərazisində yerləşir, sahəsi 21000 hektardır. Ərazi dəniz sahillərindən başlanan düzənlik ərazidə yerləşdiyindən isti yarımsəhra və quru çöl iqliminə malikdir. Respublikanın ən böyük şirin sulu Ağzıbirçala (liman) gölü bu ərazidə yerləşir. Heyvanat aləmini əsasən canavar, tülkü, çaqqal, porsuq, qunduz və s; quşlardan isə qaz, yaşılbaş ördək, qaşqaldaq və s. su-bataqlıq quşları təşkil edir. Eyni zamanda təsərrüfat ərazisində suda və suda-quruda yaşayanların müxtəlif növləri yayılmışdır. Ağzıbir Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd köçəri quşların mühafizəsi və səmərəli istifadəsidir.

Son zamanlar Şabran rayonu ərazisində drenaj kollektorlarının qazılması Ağzıbir Ovçuluq Təsərrüfatının su-bataqlıq sahələrində su balansının pozulmasına səbəb olmuşdur.

**Giləzi Ovçuluq Təsərrüfatı** - Xızı rayonunun inzibati ərazisində yerləşir, sahəsi 25 hektardır. Ərazisinin Xəzər dənizinə çıxışı olduğuna görə ovçuluq təsərrüfatında su bataqlıq sahələr geniş yayılmışdır və iqlimi mülayim, havası qurudur. Ərazi göllərdən ( üç böyük göl) ibarət olduğundan burada su bataqlıq quşlarına və müxtəlif balıq növlərinə rast gəlmək mümkündür. Təsərrüfatın müxtəlif yerlərində seyrək halda cır nar, qaratikan, yemişan, iydə, vələs, palıdın kol forması və s. kolluqlar üstünlük təşkil edir. Giləzi Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd köçəri quşların mühafizəsi və səmərəli istifadəsidir.

**Varvara Ovçuluq Təsərrüfatı** - Yevlax rayonunun inzibati ərazisində yerləşir, sahəsi 7762 hektardır. Ərazi Kür çayının sahilində yerləşdiyindən əsasən, düzənlik sahədən ibarətdir. Ərazinin iqlimi mülayim-isti və quru - çöl iqliminə aiddir. Burada əsasən müxtəlif balıq növləri və su bataqlıq quşları üstünlük təşkil edir. Ona görə də qaranaz, qarıldaq, vağ, qarabatdaq və s. quş növlərinin qarışıq koloniyası qorunub saxlanılır. Varvara Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd su bataqlıq quşlarının, xəzdərililərin mühafizəsi və səmərəli istifadəsidir.

**Babadağ Ovçuluq Təsərrüfatı** - Quba rayonunun inzibati ərazisində yerləşir, sahəsi 61000 hektardır. Ovçuluq Təsərrüfatı yüksək dağlıq ərazidə yerləşdiyindən buranın iqlimi soyuq və rütubətlidir. Ərazinin dağ yamacı seyrək kol olan çəmənlik və qayalıqlardan ibarətdir. Heyvanat aləmini əsasən xınalı kəklik, yabanı göyərçin, Dağıstan turu, cüyür, köpgər, çöl donuzu və digər vəhşi heyvanlar təşkil edir. Dağ turizmi üçün maraqlı ərazi olan Babadağ Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd çöl donuzu, qonur ayı, qırqovul və s. ov obyektlərinin artırılması, bərpası və ovlanmasıdır.

**Şəki Ovçuluq Təsərrüfatı** - Şəki və Oğuz rayonlarının inzibati ərazisində yerləşir, sahəsi 60000 hektardır. Dağlıq ərazi olduğundan arktik və mülayim hava iqlimi üstünlük təşkil edir. Ərazinin çox hissəsinin meşəlik olması heyvanlar aləminin zənginliyinə şərait yaratmışdır. Qamışlıq və kolluq ilə növbələşən bəzi açıq yerlər biçənək və taxıl əkini üçün istifadə edilməkdədir. Şəki və Oğuzun təbiəti çox rəngarəng olduğundan təsərrüfat ərazisində qonur dağ meşə, qəhvəyi dağ meşə, çəmən meşə, boz qonur torpaqları geniş yayılmışdır. Şəki Ovçuluq Təsərrüfatının yaradılmasında məqsəd çöl donuzu, dağ kəli, qırqovul, köpkər və s. ov obyektlərinin artırılması, bərpası və ovlanmasıdır.

**"Çöl adamı" kimi tanıdığımız, Dünya Üzgüçülük Konfederasiyasının üzvü, "Qızıl pəri" mükafatı laureatı, Azərbaycanın fəxri ovçusu, teleaparıcı Kamal Dəniz:** "Azərbaycan Respublikasında bütün ov Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tənzimlənir.

Bir-iki gün öncə sosial şəbəkələrdə məlumat yayılmışdı ki, Azərbaycanda balıq ovu qadağan edildi. Bu tamamilə yanlış bir məlumatdır. Çünki Azərbaycanda balıq ovu qadağan edilməyib. Ölkəmizdə balıq ovuna ancaq sənaye üsulu ilə ovlanan balıqlarda qadağa qoyulub. May ayının 1-dən başlayaraq sentyabr ayının 1-nə qədər bütün Azərbaycanın su hövzələrində sənaye üsulu ilə bağlı ovuna qadağa qoyulub. Lakin bu həvəskar balıqçılara şamil edilmir. Həvəskar balıqçılar ancaq qırmaqla balıq ovlaya bilərlər ki, bunun da qaydaları var. Bu da Ekologiya və Təbii Sərvətlər nazirliyi tərəfindən müəyyənləşdirilib.

Həvəskar balıqçılar ancaq qırmaqla balıq ovlayırlar. Bu balıqlara da "kilkə", "kefal", "siyənək", "çapak", "külmə", "çəki", "xəşəm", "kütüm", "daban", "naxa", "sıf" və xərçəngkimilər aiddir. Bunların da norması var. Bir balıqçı 3 tilovda hər tilovda 2 qırmaq olmaqla balıq ovlaya bilər. Xərçəng və krivetkanı yarım kiloya qədər ovlaya bilərlər. Burada tordan söhbət gedə bilməz. Amma elə balıq növləri var ki, onları ovlamaq qadağan olunub. Bunlara "dəniz sıfırı", "qaya balığı", "qızılxallı", "qılınc", "Şirvan külməsi", "Xəzər şitbiti", "nərə", "bölgə", "uzunburun" aiddir.

Onu da qeyd edim ki, tilov və ya qırmaqla balıq ovlayan həvəskar balıqçılara 5 kilodan artıq balıq tutmağa icazə verilmir. Balıq tutulan yerə balıq vətəqəsi deyirlər. Azərbaycanda 151 balıq vətəqəsi var. Bu vətəqələr sentyabr ayının 1-nə qədər balıq ovlamırlar. Çünki onların balıq ovu ancaq torlar vasitəsilə həyata keçirilir".

*Ayşən Vəli*



# Artıq Paşinyanın əlindən konyakı alın!

**Afət Tahirqızı**

***Cəbhədə yenidən gərginlik yaşandı və bu gərginlik növbəti dəfə Ermənistanın təxribatı nəticəsində baş verdi. Artıq məqsəd də bəllidir - sülhə imza atmamaq və mövcud vəziyyəti uzunmüddətli məcraya salmaq. Amma Ermənistan buna nail ola biləcəkmi? Üstəlik, 3 yaralımızın və bir şəhidimizin olduğu təxribat fonunda İrəvan Bakının bir daha sərt və qətiyyətli cavab verəcəyini bilmirmi? Söz yox ki, bilir və ində də hər zaman olduğu qədər yapışacaq xarici ölkələrin ətəyindən. Bəs qoymayın, Azərbaycan erməni xalqına qarşı "aqressiya" siyasətini aparır və s...***

Belə məqamlarda isə Nikol Paşinyanın ənənəvi planları işə salınır. Daha doğrusu, təxribat planını qurur, hətta öncədən bəyanatını da hazır edir və...

**Əvvəlcədən hazırlanmış "operativ" bəyanat**

Və başlayır Azərbaycana qarşı sərsəm fikirlərini deməyə. Məsələn, Paşinyan bu dəfə nə dedi? Beləliklə, erməni baş nazir müəyyən olunmamış sərhəddə - Zod istiqamətində baş verən təxribata "operativ", yəni əvvəlcədən hazırladığı bəyanatını səsləndirərək dedi ki, "günahkar Azərbaycanıymış" (?!)

Məhz bu iddiadan da ehtimal etmək olar ki, Nikol çox sevdiyi erməni konyakının güclü sərxoşluq təsiri altında dəm vurub. Çünki həyasızlığın da bir həddi olar, bu həyasızlığın isə nə həddi var, nə də hüdudu!

**Azərbaycan Vaşinqtonda öz istədiyinə nail olubsa, onda əldə edilmiş tərəqqiyə nəyə görə badalaq vursun ki (?)**

Sən demə, "Bakı bu yaxınlarda Vaşinqton prosesində əldə edilmiş tərəqqini pozmağa can atır, üstəlik, qarşıdan gələn Brüssel və Kişinyov görüşlərini də sual altında qoyur...".

İndi isə bu sərxoşun irəli sürdüyü iddialarının detallı təhlilinə keçək. Misal üçün, Vaşinqtonda baş tutan danışıqlardan sonra həmin Paşinyan deyilmiydi ki, Azərbaycanın "kompromisə" getmədiyini və istədiyinə nail olduğunu deyirdi?

Bəli, bu, məhz həmin Paşinyandır!

Yaxşı, əgər erməni baş nazirinin dediyi kimi, Azərbaycan Vaşinqtonda öz istədiyinə nail olubsa, onda əldə edilmiş tərəqqiyə nəyə görə badalaq vursun ki (?) Yəni, niyə sərxoş Nikolun dediyi kimi, "təxribata" əl atsın? Axı Bakı zatən istədiklərinə nail olub və olmaqda da davam edir!

**Günah isə artıq Azərbaycandan getdi!**

Deməli ki, Ermənistanın baş naziri bu dəfə çox sevdiyi konyakı "peredozirovka" edib və özü-özünü tələyə salıb. Hətta dolayısı ilə etiraf edib ki, Zoddakı təxribatın törədilməsi üçün qırmızı düyməyə də özü basıb! Nə edək, qoy bir az da belə düymələrə bassın. Basdıqca həm özünü, həm ölkəsini, həm də xalqını çıxılmaz, hətta dəhşətli vəziyyətə doğru sürükləyir. Azərbaycanın suveren ərazisində qurduğu Laçın sərhəd keçid məntəqəsinin "qanunsuz" olduğunu deyir və s. Günah isə, artıq Azərbaycandan getdi!

***PS.*** *Yeri gəlmişkən, Paşinyanın naz-qəmzəsi ilə oynayanlar da, artıq bu sərxoş alkoqolikin əlindən konyak şüşəsini alsınlar. İçib özünü itirir və ifşa edir....*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb.*

# Günəşin qəzəbindən necə qorunmalı?



*Ekspertlər iddia edir ki, saat 11.00-18.00 aralığında Günəş Yerə son dərəcədə təhlükəli şüalar ötürür*

***Soyuq qış aylarında ən çox arzuladığımız ilıq günəş hərarətidir. Bütün qış boyu yayı, dənizi, qumu həsrətlə gözləyənlər çoxdur. Amma isti yay günlərində də həkimlər tez-tez xəbərdarlıq edir ki, günəş şüasına məruz qalmaq təhlükəlidir. Psixoloji araşdırmaların nəticələrinə görə günəşli havalar psixoloji rahatlıq, canlılıq gətirir. Xüsusilə, yaz günəşi orqanizm üçün çox faydalıdır, insan bədəni üçün təməl vitamin hesab olunan D vitaminini orqanizmimizə günəş bəxş edir.***

### Günəş şüasında D vitamini də var, xərçəng də...

Bədəndə lazımi miqdarda D vitamininin toplanması üçün saatlarla günəşlə təmas vacib deyil. Əksinə, günəşin təhlükəli şüalar yaydığı saatlarda kölgələrə çəkilmək vacibdir. İnsana gün ərzində 15-20 dəqiqə ərzində üz, qol və əl kimi bədən orqanlarının günəş vannası qəbul etməsi yetərlidir. Xüsusən uşaq və yaşlılar üçün daha önəmli olan səhər günəşi bu vitamini kifayət qədər ötürə bilir.

Tibb elmi sübut edib ki, insanlar Günəşə, onun təsiri ilə yaranan D vitamininə ehtiyacların 80 faizə qədərini 18 yaşlarından əvvəl təmin edirlər. Təbii Günəş vannaları sədəf və ekzema kimi dəri xəstəliklərinin sağalmasında önəmli vasitələrdən sayılır. Ancaq Günəş vannalarının qəbulu və nə qədər Günəş altında qalmağın müddəti həkim nəzarəti ilə fərdi qaydada təyin olunmalıdır. Çünki uzun müddət Günəş altında qalmaq belə xəstələrdə əlavə mənfi təsirlərə yol aça bilər.

Xüsusilə, ağ dərili insanlarda qısa müddətdə dəri yanıqları əmələ gəlir. Günəşə həssaslıq yaradan bəzi dərmanların (məsələn, hamiləliyi önləmək dərmanları) qəbulu zamanı insanlar Günəş altında çox qalarlarsa, bu, bədəndə reaksiyalara yol açar. Bəzi dəri xəstəlikləri isə Günəş vannaları qəbul edən zaman daha da ağırlaşır.

### Açıq rəng dərili insanlar daha diqqətli olmalıdır

Həkim-dermotoloq Xatirə Hacıyeva deyir ki, uzun müddət Günəş altında qalmaq üzdə qırışlar, dəridə rəng dəyişikliklərinə səbəb olur, eləcə də dəri xərçəngi və müxtəlif dəri xəstəliklərinə yol açır. Bu gün dünyada dəri xərçənginə tutulanların sayının sürətlə artmasının əsas səbəbi sırasında da məhz Günəş şüaları göstərilir.

Günəş işığı özündə dərinin məsamələrindən keçə bilən ultrabənövşəyi (UVA və UVB) ehtiva edir. Həm UVA, həm də UVB şüaları dəridə qırışlara səbəb olmaqdan əlavə həm də infeksiyalara qarşı müdafiə sistemini zəiflədir. Yaşlanma ilə əlaqədar dəri xəstəliklərinə və xərçəngə səbəb olur. UVB dərinin xarici təbəqələrinə təsir edən və yanıqlara səbəb olan əsas amildir.

Müsahibimizin sözlərinə görə, xüsusilə, işlə bağlı uzun müddət Günəş altında qalmağa məcbur olanlar dəri xərçəngi riskinə qarşı qoruyucu tədbirlər görməlidirlər: “Dəri xərçəngi növlərinə daha çox açıq rəngli dərisi olan insanlarda təsadüf edilir. Açıq dərili insanlar nisbərən daha çox risk daşıyırlar. Bu xəstəlik dəridə qabıqlanma-pullanma, sərtləşmə, daha sonra qaşıntı, qanama kimi problemlərə yol açan dəyişikliklərlə özünü göstərir. Əgər bu əlamətlər alın, yanaq, boyun, dodaq, əl, qol kimi günəş şüaları ilə təmas etmək ehtimalı çox olan yerlərdə meydana gəlirsə, daha diqqətli olmaq lazımdır”.

Xatirə Hacıyeva bildirir ki, dəri xərçəngi ona görə yaranır ki, ultrabənövşəyi şüaların təsiri ilə hüceyrələrdə dəyişikliklər meydana gəlir. Başqa sözlə, ultrabənövşəyi şüalar dəri hüceyrələrinin DNK-larını pozur. DNK quruluşu pozulan hüceyrə çoxaldığı zaman isə xərçəngləşə bilən, anormal və nəzarətsiz yeni hüceyrələrin yaranması asanlaşır.

Qeyd edək ki, dəri xərçənginin yaranmasında gün altında çox qalmaq nəticəsində su qabarcığı əmələ gətirən günəş yanıqlarının sayı da önəmlidir. Buna görə də uşaqları Günəşdən qorumaq çox vacibdir. Xüsusilə açıq rəngli dəriləri olan uşaqlara diqqət yetirmək lazımdır. Çünki uşaq və gənclik yaşlarında nəzarətsiz və uzun müddət günəş altında qalanlar arasında dəri xərçənginə daha çox rast gəlinir.

### Günəşdən ən çox gözlər qorunmalıdır

Amerika elmi mərkəzlərinin apardıqları araşdırmalara görə, gözlər də günəş şüalarından ən çox təsirlənən orqanlar sırasındadır. Ultrabənövşəyi şüalar gözlərdən həddən çox yaş axmasına, bu da son nəticədə katarakta, pterygium, fotokeratit kimi göz xəstəliklərinə yol açır. Eyni zamanda gözlərin bulanıq görməsi, gözlərin qızarması müvəqqəti görmə qabiliyyətinin itməsi ilə də nəticələnir. Xüsusən gənc insanların gözlərini qorumalarına ehtiyac var.

Təcrübə göstərib ki, uşaqlar və yeniyetmələr günəşlə əlaqədar olan göz problemləri ilə daha tez-tez qarşılaşırlar. Çünki adətən, bu yaşda olanlar yaşlılara nisbətən günəşli havada daha çox vaxt keçirirlər. Beləliklə də, gözlər günəşin zərərli şüalarının təsirinə daha çox məruz qalır. Ultrabənövşəyi şüalar günəş allergiyalarına da səbəb olur. Belə şüalar şüşədən də keçir.

Gözləri günəşdən qorumaq üçün istifadə etdiyimiz eynək gözümüzə daha çox zərər verə bilər. Təbii ki, əgər saxta olarsa. Orijinal eynəkləri təqlid edərək saxta şüşələrdən hazırlanan gün eynəkləri günəşdən gələn və göz sağlamlığı üçün təhlükəli olan ultabənövşəyi və infraqırmızı şüaları zərərsizləşdirə bilmir və gözə ötürür. Əgər orijinal eynək ala bilmirsinizsə o zaman günəşin qızmar saatlarında bayırda gəzməmək, mümkün qədər günorta saatlarında evdə olmaq yaxşıdır. Çünki orijinal yerinə saxta eynək taxaraq günəşdə gəzmək gözlərə iki dəfə artıq zərər verir. Saxta şüşələr göz bəbəyini genişlədir və günəş daha çox gözə təmas edə bilir.

### 20-30 il əvvəl niyə təhlükəli hesab edilmirdi?

Bəzən günəş şüalarının təsirinə məruz qalmağın zərərsiz olduğu barədə də iddialar səsləndirilir. Xüsusilə əkinçilik, maldarlıq, ümumiyyətlə təsərrüfatla məşğul olan insanların daha çox günəış şüasına məruz qaldığı, lakin zərərlərini görmədiyi bildirilir. Ekspertlər bunun da cavabını verirlər.

Belə ki, Yeri günəşdən qoruyan ozon təbəqəsinin getdikcə nazikləşməsi günəş şüalarının təhlükəlilik dərəcəsini artırmaqdadır. Nazik qaz sipəri olan ozon təbəqəsi Yer kürəsini Günəşin məhvedici radiasiyasından qoruyur və necə deyərlər, bir növ planetimizin təhlükəsizliyinin keşiyində dayanır. Yer kürəsində olan bütün canlıları ultrabənövşəyi şüalanmadan qoruyan ozon qatının qorunması son illər dünyanın birinci dərəcəli probleminə çevrilib.

Amma bu, ozon qatının deşilməsindən sonra müzakirə obyekti oldu. Alimlər isə həyəcanla təbəqənin getdikcə nazildiyini deyirlər. Bu isə təkcə istilik yaratmır, kəskin soyuqlara səbəb olur, getdikcə fəsillərin yeri dəyişir. Son illər yaz və payız fəsillərinin demək olar ki, yox olmasının hamımız şahidi oluruq. Soyuq qışdan qızmar yaya, yandıran yaydan isə birbaşa donduran aylara keçirik.

### Günəşdən necə qorunmalı?

Günəşdən qorunmaq üçün müxtəlif yollar var – geyim, krem kimi. Qoruyucu kremlər günəşə çıxmazdan ən azı yarım saat əvvəl istifadə olunmalı və 2-3 saatdan bir yenilənməlidir. Bu kremlər əsasən qulaq, dodaq, burun və əllər kimi bədənin Günəş şüaları görən yerlərinə çəkilməlidir. Mütəxəssislər hesab edir ki, qoruyucu kremlərin orijinallığı dəqiqdirsə, tətbiq edilmə qaydalarına düzgün riayət edildikdə, heç bir əks-təsiri olmur.

Günəşdən qorunmaq üçün kölgədə olmaq, saat 11-15 arası açıq havaya çıxmamaq, günəş hərarətinin yüksək olduğu saatlarda günəş vannası qəbul etməmək,



nazik papaqlardan, gözləri qorumaq üçün isə ultrabənövşəyi şüaları keçirməyən günəş eynəklərindən yararlanmaq da məsləhətdir. Süni ipək kimi paltarlar geyinmək məsləhətli sayılmır. Həkimlər məsləhət görür ki, təbii meyvə və tərəvəzlərlə qidalansaq günəşin zərərli təsirlərindən, dəri xərçəngindən qoruna bilərik. Saat 18.00-dan sonra günəşin ultrabənövşəyi şüaları 80 % azalır.

Günəşli yay aylarında nazik və açıq rəngli paltarlar geyinmək lazımdır. Belə paltarlar Günəş işığının dərini yandırmasını əngəlləyir, bədənin tərləyərək su itirməsinin qarşısını alır. İsinmiş torpağa, ya da quma yalın ayaqla girmək isə məsləhət deyil.

Günəşin qızmar olduğu vaxtlarda günvurma hallarına da çox rast gəlinir. Günəş vuran şəxsi dərhal kölgəyə çəkmək, sərin su ilə yaxalamaq, biləklərinə, oynaqlarına buz qoymaq lazımdır. Əgər şüuru üstündədirsə, su içirmək vacibdir. Vəziyyəti pisləşirsə, həkimə müraciət etmək gərəklidir. Qeyd edək ki, günvurma çox ağır nəticələr verə bilən xəstəlikdir.

***Lalə Mehralı***

ARAŞDIRMA

SON SƏHİFƏ

# Səs

12 may
2023-cü il

# Süddən imtina orqanizmdə qida maddələri çatışmazlığı yaradır



*Deyilənə görə, süd məhsulları həzm pozuntusu, autoimmun xəstəlikləri, piylənməyə səbəb ola bilər. Əslində bu, həqiqətdən uzaqdır. Bu barədə “MedikForum” saytına açıqlamasında həkim-endokrinoloq, diyetoloq Oksana Mixaleva bildirib. O diqqətə çatdırıb ki, bu fikrin tərəfdarıdır.*

Həkim bildirib ki, süddən imtina edilməsi daha çox orqanizmə ziyan vura bilər, çünki bu, qida maddələri çatışmazlığına səbəb olur. Mixaleva vurğulayıb ki, məhz süd məhsulları insan orqanizmi üçün əsas kalsium tədarükçüsü rolunu oynayır, onların nəzərə alınmaması kalsium defisitinə gətirə bilər. Əlli yaşdan sonra bu mikroelementin çatışmazlığı osteoporozun inkişafına səbəb ola bilər.

Bundan əlavə, südün tərkibində tez həzm olunan zülal var. Uşaqlarda, yeniyetmələrdə, reproduktiv yaşda olan qadınlarda, yaşlı insanlarda, idmançılarda və fiziki fəaliyyətlə məşğul olan insanlarda bu cür zülala ehtiyac çox yüksəkdir.

Südün tərkibində daha nələr var? O, B qrupu (V12, V1, V6) vitaminləri, A vitamini, C vitamini, fosfor, sink, dəmir, selen kimi sağlamlıq üçün vacib olan vitaminlər və mikroelementlərin mənbəyidir.

# Xarici turistlər üçün qiymət niyə bahadır?



***Ölkəmizdə bəzi tarixi-mədəni məkanlara giriş üçün xarici turistlərdən yerli vətəndaşlarla müqayisədə bir neçə dəfə artıq məbləğdə ödəniş tələb edilir. Əgər milli-mədəni və tarixi dəyərlərimizi dünyaya tanıtmaq və xaricdən turist cəlbini artırmaq ölkəmizin turizm sektoru üçün prioritet məsələdirsə, o zaman əcnəbi turistlərə belə fərqli qiymət yanaşmasının tətbiqi nə dərəcədə məqsədəuyğundur? SİA mövzu ilə bağlı sorğu keçirib.***



Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri, Azərbaycan Ekoturizm Assosiasiyasının İcraçı direktoru Samir Dübəndi yerli və xarici turistlərlə bağlı fərqli qiymət siyasətinin tətbiqinin dünyada geniş yayıldığını qeyd edib: “Bəzi ölkələrdə bu fərq xeyli çoxdur. Turizm sosial, mədəni amillərlə dolu sahə olsa da, onun fəsadları da var. Burada ekoloji fəsadları, tarixi-memarlıq abidələrinə vurulan ziyanları göstərmək olar. Bu prosesin qarşısını almaq yox, onu tənzimləmək lazımdır. Belə fərqli qiymət strategiyası tətbiq edən ölkələrdə xarici turistlərin ödədiyi vəsaitlər toplanaraq həmin muzeylərin və digər tarixi-mədəni abidələrin bərpası üçün sərf olunur”.

S.Dübəndi bu cür yanaşmanı diskriminasiya halı kimi dəyərləndirib: “Belə diskriminasiyalara yol vermək düzgün deyil. Bu siyasətə bir də baxmaq olar və burada nələrisə dəyişmək mümkündür. Digər tərəfdən, Azərbaycan hələ o qədər də tanınmış və çox yüksək imici olan bir destinasiya səviyyəsinə gəlib çatmayıb. Biz bu inkişaf yolundayıq və çalışırıq ki, ildən-ilə turist gəlişini artıraq və daha çox bazarlardan turist cəlb edək. Odur ki, bir müddət muzeylərə və digər tarixi-memarlıq abidələrinə girişi tamamilə pulsuz etmək olar. Bununla həmin obyektlərə gələnlərin sayını artıra, həm də tur-paketlərin qiymətini sala bilərik. Çünki tarixi-mədəni məkanlarda tələb olunan qiymətlər tur-paketlərin dəyərinə təsir edir. Əfsus ki, belə yanaşmaları restoran biznesində də görürük. Restoranlarda ikili menyuların olmasını, xaricilərdən yerli vətəndaşlardan fərqli qiymətlərlə ödənişin tələb edilməsi halları var. Diskriminasiya heç də yaxşı nəticələrə gətirə bilməz. Muzeylərdə, tarixi obyektlərdə belə qiymət siyasətinin tətbiqi qəbul edilmiş təcrübə olsa da, restoran biznesində bunu qətiyyən etmək olmaz”.

Mövzu ilə bağlı turizm eksperti Ceyhun Aşurov da öz fikirlərini bildirib. “Azərbaycanda muzeylərə, bəzi tarixi-mədəni məkanlara giriş üçün biletin qiymətində turistlərlə yerli vətəndaşlar arasında fərqlər var. Onu qeyd etmək lazımdır ki, bu, təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkəsində belədir. Hətta bəzən ölkə daxilində belə tələbələr üçün olan qiymətlərlə sadə vətəndaşlar üçün qiymətlər də fərqlənir.

İlk növbədə, ölkənin öz vətəndaşlarının onun mədəni-tarixi abidələri ilə yaxından tanışlığı, onları tədqiq etməsi daha vacibdir. Xarici vətəndaşlara isə bunlar daha çox maraqlıdır. Biz bunu sırf ölkənin tanıdılması məqsədilə dəyiriksə, bu zaman təbii ki qiymətlər müqayisəli olmalıdır. Əslində, Azərbaycanda turistlər üçün tarixi-mədəni abidələrə, muzeylərə giriş qiymətləri xarici ölkələrə nisbətən kəskin şəkildə baha deyil”- deyə o qeyd edib.

***Ləman Əlizadə***

SORĞU

# Toy edənlər niyə qızıl ala bilmir?



***“Bu gün Amerika və Avropada maliyyə bazarlarında baş verən proseslərlə və böyük bankların iflası ilə bağlı müəyyən investorlarda qorxu yaranıb. Artıq dünya bazarlarında qızılın qiymətinin artması müşahidə olunur. Belə ki, investorlar daha çox valyuta və maliyyə alətlərindən qızıla investisiya yatırmaq həvəsindədilər. Çünki bunu daha sabit infestisiya aləti sayırlar". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eyyub Kərimli deyib.***

Onun sözlərinə görə, bu baxımdan artıq dünyada da ilin əvvəlindən qızılın qiymətində artım müşahidə olunur: "Sözsüz ki, bu da öz təsirini ölkəmizdə olan qızıla göstərir. Belə ki, biz zərgərlik məhsullarını əsasən xaricdə idxal edirik”.

Eyyub Kərimli sözlərinə belə davam edib: ”Ölkəmizdə hal-hazırda toy mövsümüdür. Qızılın qiymətində də qızıla olan tələbatın artması nəticəsində artım müşahidə olunur. Düşünürəm ki, hələ də dünya bazarıyla əlaqədar olaraq qızılın qiymətində artım davam edəcək. Lakin qarşıdan Məhərrəm ayı gəldiyi üçün qiymət sabitlənə bilər”.

***Ayşən Vəli***

İQTİSADÇI-EKSPERT AÇIQLADI

# Sabunçuda qəsdənadam öldürmə faktı ilə bağlı cinayət işi başlanıb

Mayın 10-u saat 12 radələrində paytaxtın Sabunçu rayonunda yerləşən mənzillərdən birində 1983-cü il təvəllüdlü Sevinc Quliyevanın ölməsinə dair rayon prokurorluğuna məlumat daxil olub. Rayon prokurorluğundan AZƏRTAC-a bildirilib ki, aparılmış araşdırmalarla 1977-ci il təvəllüdlü Zöhrab Quliyevin arvadı Sevinc Quliyevaya kəsici-deşici alətlə xəsarət yetirməklə qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Zöhrab Quliyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İbtidai istintaq davam edir.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**